Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

30 AVQUST 2019-cu il

№ 152 (4050)

Qiymәti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTANIN DÖVLƏT RƏHBƏRLƏRİNİN QARABAĞA QANUNSUZ SƏFƏRLƏRİ QADAĞAN EDİLƏ BİLƏR...

■ səh. 5 ■

Yeni Qarabağ savaşı Ermənistanın gözlədiyindən də tez başlaya bilər...

■ səh. 9 ■

2002-ci ildən bəri ABŞ Azərbaycana Ermənistandan 2 dəfə çox yardım edib - rəqəmlərin arxasındakı mahiyyət...

■ səh. 5 ■

Azərbaycan-Gürcüstan-Türkiyə hərbi formatında Ermənistanı qorxudan mahiyyət...

■ səh. 7 ■

Paşinyan korrupsionerlərlə bağlı vədi də icra edə bilmədi... Ya bacarmadı, ya özü də onlara qoşuldu...

■ səh. 7 ■

Dağlıq Qarabağda ölən erməni əsgərlərinin anaları Ermənistan hakimiyyətinə qarşı etirazlara başladı

■ səh. 2 ■

Rəsmi dövlət qəzetlərində başsağlıqları ləğv edilir...

■ səh. 12 ■

Uşaq pullarının bərpa söhbətləri konkretləşir...

■ səh. 14 ■

Strateji Elmi Tədqiqatlar Mərkəzinin layihələrindən hərbidə istifadə olunacaq

■ səh. 12 ■




■ səh. 4 ■

## Saxta «Facebook» səhifələrinə ictimai maraq reytinqi tam tənəzzül həddinə düşür...



Əli Həsənovun axırıncı «şəbəkə statusu» əslində Prezidentin ictimaiyyətdən açıq informasiyalar almasının bir üsulu kimi...

■ səh. 3 ■



S-400-lərdən sonra «Su-57 gedişi» Ankaranı Qafqazda da gücləndirəcək - erməni təcavüzünə yeni əks-qüvvə...

■ səh. 6 ■

Paşinyan komandasının «Transparency International» təşkilatı ilə çirkli siyasi oyun planları üzə çıxdı...

■ səh. 8 ■

■ səh. 10 ■

Sovet dərsliklərində də erməni dövlətçiliyi barədə mövzular yox idi, Azərbaycan dövlətçiliyi isə...



■ səh. 11 ■

"KXCP-yə öz evi kimi baxan Nisəxanım üçün KXCP 15.10.2017-ci ildə bitib - ruhum gedib, qalan cismimdir..."



■ səh. 15 ■

Gənc müəllim və məktəb direktorlarının sayı artır



■ səh. 14 ■

Ölkəyə ət idxalı artır, qiymət dəyişikliyi gözlənilirmi...



■ səh. 15 ■

Avqustda yol qəzaları və ölümlərin nisbi say artımının səbəbləri var...



## Sosial şəbəkələrdə din pərdəsi altında təbliğat aparan qruplar var



**Sosial şəbəkələrdə din pərdəsi altında təbliğat aparan qruplar var. "Trend"in məlumatına görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının birgə təşkilatçılığı ilə "Dini qurumlar və QHT-lər: birgə fəaliyyətin təşkili və əhəmiyyəti" mövzusunda keçirilən konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib.**

Onun sözlərinəə görə, həmin qruplar Azərbaycanda deyil, xaricdədirlər: "Bu proses əsasən azərbaycanlıların da aktiv olduğu "Facebook" şəbəkəsində daha çox olur. Onlar Azərbaycanda deyil, xarici ölkələrdə fəaliyyət göstərir. Çox istərdik ki, cəmiyyət, ictimai qurumlar sosial şəbəkələrdə bu cür qruplara mane olmaq üçün müzakirələr aparsın, aktiv fəaliyyət göstərsin".

## "Formula 1" üzrə 2020-ci il Azərbaycan Qran Prisi iyunun 7-də keçiriləcək



**"Formula 1" üzrə dünya çempionatının təşkilatçıları 2020-ci il mövsümünün təqvimini dərc ediblər.**

Çempionata martın 15-də Avstraliyada start veriləcək, noyabrın 29-da Əbu-Dabidə başa çatacaq. Təqvim 22 mərhələdən ibarətdir.

Çempionta Vyetnam (5 aprel) və Niderlandda (3 may) keçiriləcək 2 yarış daxil edilib.

Azərbaycan Qran Prisi iyunun 7-də (son 3 ildə aprelin sonunda - İF) keçiriləcək. Bu, mövsümün 8-ci mərhələsi və Avropada 4-cü yarışdır.

Bakıda "Formula 1" yarışları 2016-cı ildən keçirilir və 2017-ci ildən rəsmi şəkildə Azərbaycan Qran Prisi adlanır.

2019-cu ildə Azərbaycan Qran Prisini 85 minə yaxın tamaşaçı izləyib.

## Bakı israillilərin ən çox səfər etdiyi 10 şəhərdən biri oldu

**Bakı israillilərin ən çox səfər etdiyi 10 şəhər siyahısında yer alıb. "Trend"in məlumatına görə, Dövlət Turizm Agentliyi bu barədə məlumatı İsrailin nüfuzlu gündəlik qəzeti "Ynet" ölkənin "Amadeus" şirkətinə istinadən açıqlayıb.**



Məlumata görə, İsrail vətəndaşlarının 2019-cu ilin yanvar-iyul ayları ərzində ən çox səfər etdiyi xarici ölkə şəhərlərinin siyahısı açıqlanıb.

Bakı 2018-ci ilə nisbətdə 29% artımla İsrail vətəndaşlarının ən çox üz tutduğu şəhərlər sırasında ilk 10-luqda qərarlaşıb.

İlk 10-luğa, həmçinin Rusiyanın, Gürcüstanın, Bolqarıstanın, Kiprin və Yunanıstanın şəhərləri də daxil olub.

Qeyd edək ki, Azərbaycan Turizm Bürosu 2019-cu ilin əvvəlindən etibarən israilli turistləri hədəfləyən kampaniya həyata keçirir.

Bundan əlavə, Azərbaycan Turizm Bürosu davamlı olaraq sosial şəbəkə hesablarında İsrail bazarına hədəflənmiş paylaşımlar yerləşdirir və reklam siyasəti aparır.

Qeyd edək ki, 2018-ci ildə İsraildən Azərbaycana gələnlərin sayı 40 082 nəfər təşkil edib.

Bu ilin yanvar-iyul aylarında isə Azərbaycana 24 464 İsrail vətəndaşı səfər edib.

# Türkiyə və Gürcüstan hərbi qulluqçuları Bakıya gəlib

**Sentyabrın 2-dən ölkəmizdə keçiriləcək "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimində iştirak etmək üçün Azərbaycana gələn Türkiyə və Gürcüstan Silahlı Qüvvələrinin şəxsi heyətinin təntənəli qarşılanma mərasimi olub.**



Müdafiə Nazirliyindən "Trend"ə bildirilib ki, sentyabrın 6-dək davam edəcək təlim Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində və səhra şəraitində keçiriləcək.

Təlimə hazırlıq dövründə qonaqlar üçün bir sıra mədəni-kütləvi tədbirlərin keçirilməsi planlaşdırılır.

"TurAz Qartalı - 2019" birgə taktiki-uçuş təlimlərində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin (HHQ) geniş tərkibdə uçuş və mühəndis-texniki heyətinin ölkəmizə gəlişi ilə bağlı

Müdafiə Nazirliyindən o da bildirilib ki, təlimlərə hazırlıq məqsədilə hazırda heyətlərin yerləşdirilməsi, təlimin planlaşdırılması və digər təşkilati məsələlərlə əlaqədar müvafiq tədbirlər həyata keçirilir.

Təlimlər sentyabrın 2-dən 16-dək keçiriləcək.

# Dağlıq Qarabağda ölən erməni əsgərlərinin anaları Ermənistan hakimiyyətinə qarşı etirazlara başladı

**Dağlıq Qarabağda müxtəlif dövrlərdə ölən erməni əsgərlərinin anaları etiraz aksiyası keçirib. "Trend" Ermənistanın tert.am saytına istinadən xəbər verir ki, müxtəlif dövrlərdə ölən əsgərlərin anaları yenidən hökumət qarşısında etiraz edir.**



Ölən əsgər Valeri Muradyanın anası inqilabdan sonra Nikol Paşinyanın onları qəbul etdiyini, işlərin açıqlanacağını vəd etdiyini, ancaq bu gün bunların ortaya qoyulması üçün heç bir addım atılmadığını deyib, izləmə komissiyası qurulsa da, işlərin açılmadığını bildirib: "Çox ümidlərimiz var idi, böyük gözləntilərimiz var idi və onun tapşırığının çox sərt olacağını gözləyirdik. Əgər valideynlər burada dayanıblarsa, deməli heç bir məsələ həll edilmədi.

Daim bizə deyirdilər ki, işiniz komitədədir, komitə yaradılıb, İstintaq Komitəsi QHT-lərlə birlikdə araşdırma aparır. Xüsusilə oğlumun işi hüquq müdafiəçisi Edqar Xaçatryanla əlaqəli idi, istintaq komitəsindən çoxlu materiallar istədi, heç bir şey vermədi, qrupdan çıxdı".

Valideynlər, eyni zamanda bir əsgər anası olduğunu nəzərə alaraq, Anna Hakobyanla görüşmək üçün müraciət etdiklərini, ancaq Anna Hakobyanın ölkədə olmayacağına dair yazılı müraciətinə cavab verən Nanadan eşitdiklərini söyləyiblər: "Maliyyə məsələləri ilə məşğul olmurlar. Amma baxaq bir sətir pul haqqında bir şey var? Biz pul istəmirik. Qəbul etməsə də, heç olmasa deyərdi ki, bağışlayın, işlərin ortaya çıxması üçün əlimizdən gələni edəcəyik".

# İrandan "Famil"in planı ilə gətirilən narkotiklərin yolunu gömrükçülər kəsdi...

**Azərbaycan gömrükçüləri qanunsuz yollarla ölkə ərazisinə gətirilən külli miqdarda narkotik vasitənin realizə edilməsinin qarşısını alıb.**



DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin açıqlamasına görə, buna Dövlət Gömrük Komitəsi Əməliyyat-İstintaq Baş İdarəsinin Əməliyyat İdarəsi tərəfindən keçirilən tədbir nəticəsində nail olunub. Əməliyyat tədbiri İran İslam Respublikasından qanunsuz yollarla Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən külli miqdarda narkotik vasitənin "Famil" adlı şəxs tərəfindən realizə ediləcəyi barədə daxil olan məlumat əsasında həyata keçirilib.

Salyan şossesi, Noxudlu yolunun kənarında yerləşən restoranın qarşısında keçirilən əməliyyat tədbiri zamanı Azərbaycan vətəndaşı Yunusov Famil Şadiyar oğlu idarə etdiyi "VAZ 21154" markalı avtomobillə sözügedən əraziyə gəlib və avtomobildən enərək sellofan torbada olan narkotik vasitəni şərti alıcı kimi çıxış edən gömrük əməkdaşına satarkən saxlanıb.

Dövlət Gömrük Komitəsi Əməliyyat-İstintaq Baş İdarəsində həmin sellofan torbaya baxış zamanı 7 ədəd bağlamada olmaqla, qablaşdırma ilə birlikdə ümumi çəkisi 6 kiloqram 314 qram təşkil edən narkotik vasitə - həşiş aşkarlanıb.

Faktla bağlı araşdırma aparılır.

# Əli Həsənovun axırıncı "şəbəkə statusu" əslində Prezidentin ictimaiyyətdən açıq informasiyalar almasının bir üsulu kimi...

**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook" səhifəsində sosial şəbəkəyə aid status paylaşıb: "Tez-tez bu cür suallarla qarşılaşıram - "Niyə sosial şəbəkədə dostluq sorğusu göndərən hər kəsin təklifini qəbul edirsiniz?".**

Bu sualın çox sadə bir cavabı var. Hesab edirəm ki, hər bir dövlət məmuru xalqla sıx təmasda olmalı, vətəndaşları dinləməli, onların üzləşdikləri problemlərin həlli üçün səy göstərməlidir.

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi kimi bəyan edirəm ki, dilindən, dinindən, etnik və siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşımızın üzləşdiyi problemə, onları narahat edən məsələlərə həssas yanaşmaq, bu kimi məsələlərin əks olunduğu müraciətlərə çevik və operativ reaksiya vermək ölkə başçısı tərəfindən qarşımıza qoyulmuş ən ümdə vəzifələrdən biridir. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün isə mümkün olduğu qədər hər bir fərdi dinləmək, onlarla ünsiyyətdə olmaq lazımdır.

Danılmaz həqiqətdir ki, hazırda qloballaşan dünyanın yeni reallıqlarından olan sosial media gün ərzində minlərlə insanla dialoq qurmaq, cəmiyyətdə baş verən proseslərin ruhunu duymaq, təhlil etmək və xəbərdar olmaq üçün ən əlverişli platformadır. (Təəssüf ki, sosial media eyni zamanda zərərli və təxribat xarakterli çağırışların tirajlanması baxımından da münbit məkandır)

Ona görə də, mənim uzun illərdir ki, bu platformada aktiv təmsil olunmağım heç kimə təəccüblü gəlməməlidir. Bildirmək istəyirəm ki, Prezidentin köməkçisi kimi mən sosial şəbəkələr vasitəsilə də vətəndaşlarımızı dinləməyə, onları narahat edən məsələlərə aydınlıq gətirməyə hər zaman hazıram".

Qeyd edək ki, bu postu Əli Həsənov "Facebook" üzərindəki şəxsi hesabı vasitəsilə paylaşıb. Aydındır ki, şəxsi profil şəxsin özü tərəfindən işlədilir. Əli Həsənov ölkə başçısının köməkçisidir. Yəni daima ölkə başçısı ilə birbaşa informasiya mübadiləsində olan adamdır. Onun xalqa öz rəhbərliyi ilə daha asan yollarla birbaşa təmasa girməklə bağlı şərait yaratması həm də Prezidentin sadə əhalidən birbaşa informasiya ala bilməsini şərtləndirə bilər.

Digər tərəfdən daha bir diqqətçəkici məqam dövlət məmurlarının, hakimiyyətə mənsub siyasi partiya təmsilçilərinin, habelə iqtidaryönlü şəxslərin sosial şəbəkələrdə aktivləşməsi, insanlarla ünsiyyətə, dialoqa, hətta polemikalara qoşulması reallığıdır. Bəlkə də bəzilərinə bu reallıq qəribə görünə bilər. Lakin gerçək faktlar üzə çıxdıqca əsas amil budur ki, Prezident İlham Əliyev bir çox çıxışlarında özünü xalqın xidmətçisi olaraq təqdim edibsə, deməli ki, bu gün iqtidarı təmsil edən bütün məmurlar bu bəyanatdan yararlanmalı, xalqa xidmət etmək üçün daim fəallıqlarını nümayiş etdirməlidirlər. Məhz bu reallıq cənab Əli Həsənovun paylaşdığı statusunda izah edilməkdədir. Hakimiyyət komandasının bu gedişatlarını necə dəyərləndirmək olar?

***Seymur Orucov:*** *"İnformasiyanın xalqa daha operativ çatdırılması və eyni zamanda məlumatların əldə olunub ölkə rəhbərliyinin nəzərinə çatdırılmasında sosial şəbəkələrin imkanlarından istifadə etmək lazımdır"*



YAP Gənclər Birliyinin sədri Seymur Orucov "Bakı-Xəbər"ə bildirdi ki, hakim elitanı təmsil edən şəxslərin sosial şəbəkələrdəki fəaliyyətini yüksək qiymətləndirmək lazımdır:"Son vaxtlar görürük ki, YAP rəhbərliyindən təmsil olunan şəxslər, Prezidentin köməkçiləri, millət vəkilləri həmin platformada aktivlik göstərir. Qəbul etməliyik ki, artıq sosial şəbəkələr bizim həyatımızın ayrılmaz parçasına, günümüzün vacib reallığına çevrilib. İnformasiyanın əldə olunması və digər məlumatların ötürülməsində çox ideal vasitədir. Təbiidir ki, bununla hakimiyyətlə xalq arasında bir təmas növü də yaradılır. Özü də daha operativ tərzdə. Əvvəllər insanlar daha çox veb saytlara girib informasiya əldə edirdisə, indi buna o qədər də ehtiyac duyulmur. Bir bəyənmə düyməsini tıklamaqla, həmin saytın sosial şəbəkələr üzərindən paylaşdığı xəbərlərin özü bizim divarımızda görünür. Yəqin ki, hörmətli Əli müəllim və digər rəsmi şəxslər bügünkü günün reallıqlarını nəzərə alırlar. Hesab edirlər ki, informasiyanın xalqa daha opeartiv çatdırılması və eyni zamanda məlumatların əldə olunub ölkə rəhbərliyinin nəzərinə çatdırılmasında sosial şəbəkələrin imkanlarından istifadə etmək lazımdır. Buna görə də, mühüm dövlət postlarında çalışan şəxslərin sosial şəbəkələrdəki aktivliyi yalnız təqdir edilə bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ-da hələ də Türkiyədən S-400-ləri çıxaracaqlarına inanırlar



**"S-400 proqramından tamamilə çıxıb S-400-ləri də ölkə xaricinə çıxararlarsa, Türkiyənin təkrar F-35 proqramına qəbul edilməsinə baxa bilərik.**

Baki-xeber.com xəbər verir ki, bunu ABŞ müdafiə naziri Mark Esper Pentaqonda ABŞ Baş qərargah rəisi general Cozef Danfordla birgə keçirdiyi mətbuat konfransında deyib.

"Türkiyə S-400 məsələsində geri addım atıb S-400-ləri anbara qoyarsa, onları təkrar F-35 proqramına daxil etməyi dəyərləndirə bilərsinizmi" sualına cavab verən Esper deyib: "Xeyr, bu mənim kitabımda yoxdur. Mən bu mövzuda həm ictimaiyyətə, həm də türk həmkarıma açıqlamamda bildirmişəm. Bu ya S-400, ya da F-35 olmalıdır, ikisi bir arada və ya biri anbarda digəri bayırda şəklində olmaz. Ya biri, ya da digəri. Bu nöqtədəyik. Talesiz bir vəziyyətdir, təbii, amma dediyim kimi, Türkiyə uzun dövrlü böyük bir ortaq və müttəfiqdir və onların bizim dediyimiz istiqamətə doğru geri qayıdacaqlarına ümid edirəm. Amma fərqli bir istiqamətə getdikləri görünür".

ABŞ müdafiə naziri Türkiyənin F-35 proqramına təkrar qəbul edilməsi üçün S-400-lərin ölkədən çıxarılmalı olduğunu deyir: "Bunun üçün S-400 proqramından tamamilə çıxacaqlar və onları (S-400-ləri) ölkə xaricinə çıxaracaqlar. O zaman bunu dəyərləndirə bilərik".

# Saxta «Facebook» səhifələrinə ictimai maraq reytinqi tam tənəzzül həddinə düşür...

**Məlumdur ki, sosial media açıq şəbəkədir. Hər kəs bundan öz məqsədləri üçün istifadə edə bilər. Dünyanın əksər ölkələrində cəmiyyətin müxtəlif təbəqələri sosial şəbəkələrdən istifadə edir. Həmçinin, iqtidar və müxalifət təmsilçiləri də sosial şəbəkələrdən istifadə edirlər. Eyni zamanda, onlar bir-birinin dostluq səhifəsində olur, müəyyən məsələlər ətrafında fikir mübadiləsi aparır, hətta ortaq nəticəyə gələ bilirlər. Lakin Azərbaycanda vəziyyət fərqlidir.**

*Vüqar Rəhimzadə: "Bu ondan xəbər verir ki, artıq cəmiyyət sosial şəbəkələrdə sağlam düşüncədən uzaq olan belə saxtakarları rədd edir"*

Məsələ ondadır ki, sosial şəbəkələr yeni yarananda insanların bir çoxu saxta profillərin fərqinə varmırdı. Müxalifət real həyatdakı fəaliyyətini virtual aləmə daşıyaraq sosial şəbəkələrin imkanlarından sui-istifadə etməyə başladı. Əsasən də radikal mövqedən çıxış edən müxalifət fəalları. Bu zaman çoxsaylı saxta profillər meydana gəlməyə başladı. Sosial şəbəkələrdə saxta profillərdən əsasən NİDAçılar istifadə edirdilər. İlk dövrlərdə onlar bu metoddan daha çox istifadə edirdilərsə, sonra radikal mövqüdən çıxış edən müxaliflər bundan geniş formada istifadə etməyə başladılar. İlk dövrlərdə insanlar saxta profillərin fərqində olmadıqları üçün orada yazılan müxalif fikirlərin təsiri altına düşürdülər. Bəzən bir nəfər 5 və daha çox saxta profil açıb nə gəldi yazırdı. Yazıların üslubundan müəyyən etmək olurdu ki, müxtəlif adda yaradılan səhifələr bir nəfər tərəfindən idarə olunur. Bu səhifələrdə təhqirdən tutmuş ən ağlagəlməz böhtan xarakterli yazılar yerləşdirilirdi.

Ancaq müşahidələr göstərir ki, cəmiyyət artıq saxta profillərin fərqində olduğu üçün orada yazılanların təsiri altına düşmür. Facebookda saxta profil adıyla yaradılan səhifələrdən gələn dostluq təkliflərini qəbul etmir, bu cür səhifələri inceləyirlər. Məlum olur ki, profildə şəxs barədə qeyd olunan məqamlar həqiqəti əks etdirmir. İndi izləyicilər belə səhifələri görən kimi, sosial şəbəkənin verdiyi imkanlardan istifadə edərək həmin səhifəni blok edirlər. İnsanlar real səhifələri izləyir və məlumat əldə edirlər. Artıq saxta profil adıyla sosial şəbəkələrdə fəallıq edənlər insanlara təsir edə bilmir. Əksər sosial şəbəkə istifadəçiləri onlara qeyri-ciddi yanaşdıqları üçün yazılanlara ya əhəmiyyət vermir, ya da həmin səhifələr ümumiyyətlə izlənilmir. Necə deyərlər, saxta profil sahibləri urvatsız itin düşdüyü vəziyyətə düşüblər.

O baxımdan yaranan bu vəziyyəti ekspertlər necə dəyərləndirir?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, cəmiyyət bu kimi insanların fərqində olduğu üçün artıq saxta profillərin təsiri altına düşmür: "Artıq saxta profil adı altında cəmiyyəti çaşdırmaq mümkün deyil. Halbuki, əvvəllər bəzi hallarda buna nail olurdular. İndi bütün bunlardan onların məhrum olması, hesab edirəm ki, müsbət tendensiyadır. Bu ondan xəbər verir ki, cəmiyyət saxta profillər üzərində yazılan populist, reallıqdan uzaq fikirlərin təsiri altına düşmür. Əvvəllər cəmiyyət bunun fərqində olmadığı üçün radikal mövqedən çıxış edənlər insanları aldadaraq onların hisslərini istismar edirdilər. İndi isə, göründüyü kimi, vəziyyət dəyişib və məkrli mövqedən çıxış edən qüvvələr sosial şəbəkələrdən öz məqsədləri üçün istifadə edə bilmirlər. Onu da qeyd edim ki, bir dəfə mənim adımdan sosial şəbəkələrdə saxta profillər yaratmışdılar. Hətta bəzi rəhbər vəzifələrdə çalışanların adından belə, saxta profillər yaradırdılar. Belə hallar cəmiyyəti çaşdırırdı.

**İnsanların mövqeyinə uyğun olmayan fikirlər paylaşılırdı. Hesab edirəm ki, saxta profil adı altında fəaliyyət göstərmək yanlış və hətta deyərdim cinayətdir. Müsbət haldır ki, artıq cəmiyyət saxta profillərdə yazılanların təsiri altına düşmür. Bu ondan xəbər verir ki, artıq cəmiyyət sosial şəbəkələrdə sağlam düşüncədən uzaq olan belə saxtakarları rədd edir. Bir sözlə, belə yaramazları qəbul etmir. Hesab edirəm, bu müsbət tendensiyadır".**




*"Vəziyyət dəyişib və məkrli mövqedən çıxış edən qüvvələr bundan öz məqsədləri üçün istifadə edə bilmirlər"*

***Vidadi ORDAHALLI***

# Pakistan Hindistanla yeni Kəşmir müharibəsinin vaxtını açıqladı - "Bu son döyüş olacaq"



**Pakistan və Hindistan arasında Kəşmir böhranının iki ölkə arasında isti qarşıdurmaya çevrilmək üzrə olduğunu növbəti siqnalı verilib.**

Baki-xeber.com xəbər verir ki, Pakistanın Dəmir yolları naziri Rəşid Əhməd, iki ölkə arasında mümkün irimiqyaslı müharibənin oktyabr və ya noyabr ayında baş verə biləcəyini söyləyib.

"Kəşmirin azadlığı uğrunda son döyüşün vaxtı gəldi. Hindistanla döyüş, bu dəfə son olacaq" - Əhməd deyib.

BMT TŞ-nin bu günə qədər Kəşmirlə bağlı referendum keçirməli olduğu gərəkliyini ifadə edən Əhməd "Problemi həll etmək niyyətləri olsaydı, bunu indiyə qədər edərdilər. İşğal altındakı vadinin xalqının yanında olmalıyıq.

Bu çərçivədə Məhərrəm ayının 10-dan (9 sentyabr) sonra Kəşmirə səfər edəcəyəm" deyib.

**Məlum olduğu kimi, Paşinyan və komandası tez-tez qanunsuz olaraq işğal altında olan Dağlıq Qarabağa səfər edir. Ermənistan danışıqlarda tərəf olduğu üçün ölkə rəhbərliyinin atdığı bu cür addımlar münaqişənin həllini yubadır. Eyni zamanda, separatçı qurumun mənafeyinə xidmət edir.**

# Ermənistanın dövlət rəhbərlərinin Qarabağa qanunsuz səfərləri qadağan edilə bilər...



## *Məhəmməd Əsədullazadə: "ATƏT-in Minsk Qrupu qarşısında rəsmi Bakı bu məsələni qaldırmalı və belə səfərlərin qarşısı alınmalıdır"*

Düzdür, Azərbaycan ərazilərini təkcə Dağlıq Qarabağdakı erməni separatçıları deyil, Ermənistan silahlı qüvvələri də işğal edib. Yəni separatçılar məhz Ermənistan ordusu ilə birlikdə ərazilərimizi işğal edib. Ancaq Ermənistan hər fürsətdə bunu inkar etməyə çalışır.

O da məlumdur ki, Dağlıq Qarabağdakı separatçı qurumu nəinki dünya dövlətləri, heç Ermənistanın özü də müstəqil dövlət kimi tanımır. Belə olduğu halda, Ermənistan baş naziri başda olmaqla, digər ölkə rəsmilərinin məlum səfərləri tam qanunsuz və beynəlxalq hüquqa ziddir. Azərbaycanın bununla bağlı dəfələrlə öz etirazını bildirib. Ancaq qarşı tərəf bütün bunlara məhəl quymur. Belə olan halda Azərbaycan ATƏT-in Minsk Qrupu, vasitəçilər qarşısında bu cür səfərlərin qadağan edilməsi ilə bağlı tələblə çıxış etməlidir. Yəni münaqişə həll edilənə qədər belə səfərlər qadağan edilsin.

Maraqlıdır, belə bir təklifin irəli sürülməsi perspektivinə ekspertlər necə yanaşır?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, prinsipcə Azərbaycan belə bir təşəbbüslə çıxış edə bilər: "Ermənistan rəhbərliyinin qanunsuz olaraq işğal olunmuş ərazilərə səfəri birbaşa danışıqlara zərbədir. Təbii ki, ATƏT-in Minsk Qrupu qarşısında Azərbaycan bu məsələni qaldırmalı və belə səfərlərin qarşısı alınmalıdır. Diplomatik yolla erməni tərəfi buna əməl etməyəcək. Yalnız Azərbaycan elə bir vəziyyət yaratmalıdır ki, erməni rəsmilər işğal olunmuş ərazilərə gəlməyə çəkinsinlər. Hələlik çəkindirici faktor olmadığına görə belə bir situasiya ilə üz-üzə qalırıq. İlk növbədə nəzərə almaq lazımdır ki, işğal olunmuş ərazilər Azərbaycanın beynəlxalq müstəvidə tanınan əraziləridir. Ölkəmizin tam hüququ var ki, bu kimi səfərlərin qarşısını alsın. Erməni rəsmilər işğal olunmuş ərazilərə gələrək Azərbaycanın suverenliyi əleyhinə bəyanatlar verirlər. Belə bəyanatlar, təbii ki, aparılan danışıqlara zərbədir. Minsk Qrupunun əhəmiyyətli bir vasitəçilik missiyası fiaskoya uğrayıb. Onlardan işğalçıya qarşı hüquqi ölçünün götürüləcəyini gözləmirəm. Onlar maraqlıdırlar ki, danışıqlar davam etsin və öz vasitəçiləri vasitəsilə regionda təsirlərini saxlasınlar. Azərbaycan tərəfi belə bir gedişata qarşı durmalı və ciddi şəkildə siyasi-hərbi hərəkətə başlamalıdır".

*"Nəzərə almaq lazımdır ki, işğal olunmuş ərazilər Azərbaycanın beynəlxalq müstəvidə tanınan əraziləridir"*

***Vidadi ORDAHALLI***

---

**SSRİ dağıldıqdan sonra 1992-ci ilin avqust ayında ABŞ-ın Nümayəndələr Palatası və Senat birgə "Azadlığa Dəstək Aktı" deyə qanun qəbul edib. Bu sənəd Rusiyaya və yeni müstəqil digər dövlətlərə demokratik idarəetmə modeli və azad iqtisadiyyat formalaşdırılmasına yardım etməyi nəzərdə tuturdu.**

# 2002-ci ildən bəri ABŞ Azərbaycana Ermənistandan 2 dəfə çox yardım edib - rəqəmlərin arxasındakı mahiyyət...




## *Elşən Manafov: "Bu, Azərbaycanın etibarlı tərəfdaş mövqeyi və statusu qazanmağı ilə bağlıdır"*

Qarabağda müharibə gedərkən erməni icması və lobbisinin birgə fəaliyyəti hesabına "Azadlığa Dəstək Aktı"nın mətnində 1992-ci ildə 907-ci düzəliş (maddə) qüvvədə qaldı. Bu illər ərzində Azərbaycan ABŞ hökumətindən birbaşa yardım ala bilməyən yeganə MDB dövlət idi. 2001-ci ilin 11 sentyabr tarixində terror hadisəsindən sonra vəziyyət dəyişdi. Nəticədə ABŞ prezidenti öz səlahiyyətlərindən istifadə edərək, hər il sözügedən düzəlişi dondurur.

Bu arada məlum olub ki, 2002-ci ildən bəri Ermənistanla müqayisədə ABŞ hərbi və təhlükəsizliklə bağlı ən çox Azərbaycana yardım edib. Azərbaycan 11 sentyabr hadisələrindən sonra həmişə ABŞ tərəfindən təhlükəsizlik sahəsinə ayrılan yardımın fəal istifadəçilərindən biri olub. 2002-ci ildən indiyə qədər yardım 411,6 milyon dollar təşkil edir. Bu vəsait təhlükəsizlik sahəsinə aid 20-dən artıq layihələr vasitəsilə bölüşdürülüb.

2002-ci ildən indiyədək Ermənistana ayrılan hərbi yardımlar həmin layihələr çərçivəsində iki dəfə daha az olmaqla təqribən 196 milyon dollar təşkil edib. Faktiki olaraq, Azərbaycan və Ermənistanın təhlükəsizlik sahəsində əldə etdikləri hərbi yardım arasında hissediləcək fərq məhz son 2 ildə, yəni 2018-2019-cu illərdə nəzərə çarpıb. Belə ki, "tərəfdaş ölkələrin güclərinin inkişafı üzrə 333 nömrəli sənəd" layihəsi çərçivəsində Azərbaycan xeyli dərəcədə maliyyə yardımı almağa nail olub. Təkcə bu layihə çərçivəsində Azərbaycan 101,5 milyon dollar yardım əldə edib.

Görünən odur ki, Azərbaycanın regiondakı strateji mövqeyi, bir sıra məsələlərdə önəmi, oynadığı rol ABŞ-ın hərbi və təhlükəsizlik sahəsində ölkəmizə Ermənistanla müqayisədə daha çox yardım ayırmasına gətirib çıxarıb.

Maraqlıdır, bəs ekspertlər bunu necə şərh edir?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, bu, Azərbaycanın etibarlı tərəfdaş mövqeyi və statusu qazanmağı ilə bağlıdır: "Çünki Azərbaycan bu və ya digər müqavilələrlə üzərinə götürdüyü öhtəlikləri, bir qayda olaraq, daim ardıcıllıqla yerinə yetirib. O cümlədən, hətta Avropa Şurasına qəbul olunarkən dövlət olaraq üzərinə götürdüyü öhtəliklərin böyük əksəriyyətini Azərbaycan yerinə yetirib. Təbii ki, tutarlı tərəfdaş olmaqla yanaşı, Azərbaycan geostrateji əhəmiyyət kəsb edən problemlərin həllində ABŞ-la əməkdaşlıq edir. Eyni zamanda, beynəlxalq terrorizmə qarşı mübarizə koalisiyasına qoşulmuş dövlətlərdən biridir. Əfqanıstanda yerləşən ABŞ kontingentinin silah-sursatla təchizatında Azərbaycanın geostrateji yeri və rolu var. Bu baxımdan da Azərbaycana olan böyük maraq və daha çox yardımın edilməsi anlaşılandır. ABŞ da bu kimi məsələlərə hər zaman böyük diqqət və önəm verib. Başqa bir tərəfdən, Qərbin enerji təhlükəsizliyində Azərbaycanın oynadığı rol xüsusi qeyd edilməlidir. ABŞ prezidenti Trampın 28 May Respublika Günü ilə bağlı Prezident İlham Əliyevə ünvanladığı məktubda da bu məqam öz əksini tapıb. Ən nəhayət, Azərbaycan regionda mühüm tranzit ölkəsidir. Bütün bunları nəzərə alsaq, ABŞ-ın Azərbaycana daha çox yardım etməsi anlaşılandır. Ermənistana gəldikdə isə, bu ölkənin ABŞ üçün elə bir strateji önəmi yoxdur. Bundan başqa, Paşinyan hakimiyyəti Vaşingtonun ümidlərini doğrultmadı. O üzdən, bu ölkəyə Azərbaycanla müqayisədə az yardım edilir".

*"Ermənistana gəldikdə isə, bu ölkənin ABŞ üçün elə bir strateji önəmi yoxdur"*

***Vidadi ORDAHALLI***

**Qardaş Türkiyə ilə bağlı baş verənlər bu ölkənin ABŞ-dan uzaqlaşaraq Rusiya ilə yeni hərbi ittifaqa doğru getdiyini aydın nümayiş etdirir. Özü də bütün bunlara səbəb ABŞ-ın Türkiyəyə qarşı həyata keçirdiyi siyasətdə yol verdiyi böyük yanlışlıqlar, Ankaranı təzyiq altında saxlamaq niyyətidir.**

# S-400-lərdən sonra "Su-57 gedişi" Ankaranı Qafqazda da gücləndirəcək - erməni təcavüzünə yeni əks-qüvvə...



S-400 zenit raket komplekslərinin alışı ilə bağlı yaranan vəziyyət isə ABŞ - Türkiyə münasibətlərində daha böyük soyuquq və ziddiyyət yaratdı. Amma ABŞ-ın bütün təzyiqlərinə baxmayaraq, Türkiyə geri çəkilmədi və artıq həmin raketlərin ikinci partiyasının alışına başlayıb. ABŞ isə yenə də əvvəlki mövqeyindən geri çəkilmir.

ABŞ müdafiə naziri Mark Esper bildirir ki, Türkiyənin F-35 proqramına yenidən daxil edilməsini düşünmələri üçün S-400-lərdən imtina etməsi lazımdır. O bildirib ki, Türkiyə ya S-400-ləri almalıdır, ya da F-35-ləri: "İkisi birdən olmaz. "Birini qarajda saxlayaq, digərindən istifadə edək!" - belə vəziyyətdən söhbət gedə bilməz". Amma Ankara bir daha bəyan edib ki, S-400 məsələsi onun üçün qapanmış mövzudur. Bu vəziyyətdə ABŞ-ı çılğına döndərəcək növbəti addım isə Türkiyənin F-35 əvəzinə Rusiyadan Su-57 qırıcıları ala biləcəyidir. Əslində, hadisələrin inkişaf axarı elə bu istiqamətdə də gedir. Belə ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Moskvaya səfər etməsi, eləcə də MAKS-2019 aviasalonunda nümayiş olunan Rusiyanın ən yeni Su-57 qırıcısına baxması, Putindən "Su-57-ləri almaq olar?" deyə soruşması və müsbət cavab alması Türkiyənin bu qırıcıları alacağı məsələsini gündəmə gətirib. Ərdoğan F-35-lə bağlı ziddiyyətlrin dərinləşməsi fonunda bildirib ki, Türkiyə öz addımlarını atacaq. Onun sözlərinə görə, F-35 qırıcılarını almaq alınmasa, rəsmi Ankara bundan narahat olmayacaq. Ərdoğan Türkiyənin Amerika qırıcıları əvəzinə Rusiyanın Su-35 və Su-57 qırıcılarını alması imkanı haqqında suala "Niyə də yox" cavabını verib. Qeyd edək ki, bundan əvvəl Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ölkəsinin F-35-ləri ala bilməyəcəyi təqdirdə yeni alternativlər axtaracağını demişdi: "Döyüş təyyarəsinə ehtiyacımız var. F-35-ləri ala bilməsək, yeni alternativlər axtaracağıq". Çavuşoğlu Rusiyanın bölgədə bir reallıq olduğunu, Rusiya ilə Türkiyənin yaxşı iqtisadi əlaqələrə malik olduğunu deyib. O, Türkiyənin ABŞ-dan hava hücumundan müdafiə sistemləri almağa çalışdığını, ancaq ala bilmədiyini xatırladıb: "Bu, təcili bir ehtiyac idi və S-400-ləri almaq məcburiyyətində qaldıq. Biz F-35 proqramında ortağıq. Bu günlərdə ABŞ bəzi problemlər çıxarır, amma biz hələ 9 ortağın olduğu proqramın bir parçasıyıq. Türkiyə F-35-lərin bəzi hissələrini istehsal edir. Biz F- 35 döyüş təyyarəsi almaq istəyirik və bunun üçün 1.4 milyard dollar ödədik. Döyüş təyyarələrinə ehtiyacımız var. F-35-lər almasaq, yeni alternativlər axtaracağıq". Belə bir vaxtda yayılan digər məlumata görə, Moskva və Ankara artıq Türkiyəyə beşinci nəsil Su-57 təyyarələrinin tədarükü imkanlarını müzakirə etməyə başlayıb. Rusiya Hərbi Texniki Əməkdaşlıq Federal Xidmətinin direktoru Dmitri Şuqayev Su-57-lərin tədarükü ilə bağlı Türkiyə Müdafiə Sənayesi İdarəsinin rəhbəri ilə müzakirələr apardıqlarını bəyan edib. Şuqayev iki ölkənin Türkiyəyə, həmçinin, Su-35 təyyarələri və radioelektron mübarizə sistemlərinin tədarükü ilə bağlı söhbətlər apardığını da deyib. O əlavə edib ki, Türkiyənin yerli və milli istehsalı olan 5-ci nəsil TF-X hərbi təyyarənin istehsalına da dəstək ola bilərlər. Rusiyalı ekspert Andrey Frolov Ankaranın Rusiya təyyarələrinə olan marağı ilə bağlı qeyd edir ki, yaranmış durumda Türkiyə ABŞ-a o olmadan da yaşaya biləcəyini göstərdi. O bildirib ki, Türkiyənin maraq göstərdiyi təyyarələr Rusiyanın ixrac edə biləcəyi ən modern olanlarıdır: "Su-35 artıq davamlı olaraq istehsal və ixrac edilir, Su-57 gələcəklə bağlı bir layihədir. Çünki Rusiya Hərbi Hava Qüvvələri üçün belə davamlı şəkildə istehsal edilmir". Frolov qeyd edib ki, Türkiyə inventarını yeniləmə məsələsində F-35-ə ümid edirdi, lakin bəlli səbəblərdən bu təyyarələri ala bilmədi: "İndi Türkiyə alternativ axtarır. Rusiya da belə alternativdir".

Ekspertlər bildirir ki, yaranmış vəziyyətdə Su-57 qırıcısının Türkiyəyə tədarükündən danışarkən ilk növbədə bu təyyarənin texniki xüsusiyyətlərini və ABŞ-ın F-35-ləri nə səbəbdən Türkiyəyə satmadığını nəzərə almaq lazımdır. Məsələ burasındadır ki, amerikalılar F-35 təyyarəsini Ankaraya satmamaqlarına əsas səbəb kimi bu qırıcıların S-400 kompleksləri ilə uyğunsuzluq təşkil etməsini göstəriblər. Onlar iddia edirlər ki, F-35 təyyarəsi ilə S-400 sisteminin Türkiyə tərəfindən birgə istifadəsi nəticəsində təyyarənin gizli saxlanan texniki göstəriciləri aşkara çıxa bilər. Su-57 isə, demək olar ki, amerikalıların F-35 təyyarəsinin alternatividir, yəni Rusiya istehsalı olan bu təyyarə amerikalı rəqibinin etdiyini edir və hətta iddialara görə, onun göstəriciləri ABŞ təyyarəsindən də üstündür. Nəzərə alsaq ki, Türkiyə NATO ölkəsidir və Alyansın hava məkanı onun da ərazisinə düşür, ortaya belə bir sual çıxır: bəs Rusiya özünün ən yeni təyyarəsinin NATO-nun hava məkanında uçmasından narahat deyilmi? Amerikalıları narahat edən faktorlar Rusiyanı da narahat etmirmi? Təhlükəsizlik məsələləri üzrə ekspert Yevgeni Mixaylov bildirir ki, bu məsələdə Rusiyanın narahat olması üçün səbəb yoxdur: "Hər bir halda Rusiya bir qədər başqa modifikasiyada olan təyyarələri ixraca göndərir. Bu, Rusiyaya ziyan gətirməyəcək, heç kəs avadanlığın sirlərini aça bilməyəcək. Bundan başqa, Rusiya hər hansı bir silahı ixrac etməzdən əvvəl özü onu maksimum səviyyədə silahlanmaya qəbul edir və mən hesab edirəm, Rusiya hətta bir sıra sistemləri təkmilləşdirəcək ki, heç bir nüans olmasın. Təbii ki, bu cür silahların tədarükü qarşılıqlı hörmətə və tərəflərin bu silahları bir-birinə qarşı istifadə etməməsinə dair razılaşmalar əsasında baş verir. Rusiya Federasiyası hər bir halda özünü sığortalayacaq. Hamı bunu başa düşür və mən təyyarələrin ixracında qorxulu heç nə görmürəm". Burada, həmçinin, Türkiyə və Rusiya arasında birgə hərbi texnika istehsalının perspektivlərini də vurğulamaq lazımdır. Mixaylov deyir ki, silahların digər ölkələrlə birgə istehsalı normal təcrübədir: "Bizim təyyarələrimiz Hindistanda da lisenziya əsasında istehsal olunur. Rusiya bununla açıqlığını nümayiş etdirir, göstərir ki, düşmən deyil. Ümumilikdə, istənilən silahın, ən qüdrətli və ən yeni texnologiyaların tədarükü ilk növbədə uzunmüddətli əməkdaşlığı nəzərdə tutur. Mütəxəssislərimiz türkiyəli hərbçilərə təlimlər keçəcəklər, bu, onilliklərlə davam edən əməkdaşlıqdır. Buna görə də ABŞ narahatdır, yeni Vaşinqton Türkiyəni öz dairəsindən itirdiyini görür. Türklərin S-400-ləri almasından müəyyən müddət sonra S-500-lərin də tədarükü baş tutacaq". Bunlar fonunda aydın görünür ki, Vaşinqton getdikcə Türkiyəni itirməkdədir. Moskva ilə yaxındaşan Ankaranın isə bu gedişlə Yaxın Şərqdə, Mərkəzi Asiyada, Qafqazda təsir dairəsinin artması gözlənilir. Çünki Rusiya Türkiyə ilə əməkdaşlığı bu istiqamətlərdə dərinləşdirməyə hazırlaşır. Bu da Rusiya-Türkiyə yaxınlaşmasının mühüm geosiyasi tərəflərinin olduğunu da aydın nümayiş etdirir. Bütün bunların Qafqazda hansı dəyişikliklərə gətirib çıxaracağı da region ölkələrinin, o cümlədən Azərbaycanın xüsusi maraq dairəsindədir. Proseslər Ankaranın bölgədə güclənməsinin açılmaz olduğunu göstərir və Bakının da əsas istəklərindən biri məhz budur.

***Nahid SALAYEV***

# Azərbaycan-Gürcüstan-Türkiyə hərbi formatında Ermənistanı qorxudan mahiyyət...

***Daşdəmir Əliyev:** "Hər üç ölkənin silahlı qüvvələrinin birgə təlimləri onların operativ uyğunluğunu artırır ki..."*

**Sentyabrın 2-də Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimi başlayır.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində və səhra şəraitində keçiriləcək nəzəri və praktiki hissədən ibarət olan təlimdə üç ölkənin hərbi bölmələri və aidiyyəti dövlət qurumlarının nümayəndələri regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqları icra edəcək.

Təlim sentyabrın 6-dək davam edəcək.

Çox maraqlıdır ki, Ermənistan KİV-i və cəmiyyəti bu təlimlərin keçirilməsindən böyük narahatlıq ifadə edir. Üçtərəfli hərbi təlimlərdə onları qorxudan mahiyyət nədən ibarətdir?

Hərbi Ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, ermənilərin təşvişinin ciddi əsasları var: "Üç ölkənin hərbi sahədə əməkdaşlığı regional sabitliyə töhfə verə bilər. Qonşu ölkələrin hərbi-müdafiə sahəsində əməkdaşlığı regional sabitliyə xidmət edir. Nəzərə almaq lazımdır ki, Türkiyə NATO üzvüdür. Gürcüstanda NATO üzvlüyünə can atan bir ölkədir və NATO ilə çox sıx əməkdaşlıq edir. Bu baxımdan, üçlük çərçivəsində müdafiə və hərbi sahədə əməkdaşlıq Azərbaycan ordusunda standartların artması baxımından faydalıdır".

Ekspertin sözlərinə görə, Türkiyə-Azərbaycan-Gürcüstan formatı istənilən baxımdan hər üç dövlətin maraqlarına və mənafeyinə uyğun bir formatdır: "Bu format xeyli vaxtdır fəaliyyətdədir. Bu təlim də hərbi sahədə əməkdaşlığın inkişafı istiqamətində növbəti önəmli addım sayılır.

Həm Azərbaycanın, həm də Gürcüstanın çox ciddi təhlükəsizlik problemləri var. Hər iki ölkənin problemləri bir-birinə çox oxşardır. Bu problemləri aradan qaldırmaq hər iki dövlətin əsas məsələsidir. Təbii ki, hər iki tərəf bu məsələdə xaricdən müttəfiqlər axtarmağa bir növ məcburdur. Müttəfiq qismində də ilk növbədə bu regiona ən yaxın, eyni zamanda regionda ciddi maraqları olan dövlətlərdən biri kimi Türkiyə ola bilər.



Hər üç ölkənin silahlı qüvvələrinin birgə təlimləri onların operativ uyğunluğunu artırır ki, onlar gələcəkdə bir yerdə istər sülhməramlı əməliyyat çərçivəsində, istərsə də gələcəkdə bir ittifaq daxilində olarlarsa, o ittifaq daxilində də birgə müdafiə təlimləri görmək üçün faydalı ola bilər. Düşünürəm ki, ermənilərin keçirdiyi narahatlıq bununla bağlı ola bilər".

*Məhəmmədəli QƏRİBLİ*

# Paşinyan korrupsionerlərlə bağlı vədi də icra edə bilmədi... Ya bacarmadı, ya özü də onlara qoşuldu...

***Ramil Hüseynov:** "Paşinyanın korrupsiya ilə bağlı vədlərinin havada qalması onun korrupsiyaya ortaq olmasından xəbər verir"*

**Nikol Paşinyan son mitinqini bir il bundan əvvəl avqust ayının 17-də Baş nazir kimi vəzifədəki fəaliyyətinin 100 günlük hesabatını verərkən keçirib. Paşinyanın çıxışında verdiyi vədlərin əsasən yerinə yetirilməmiş qalması, yaxud yumşaq desək, reallıqdan uzaq iddialarda olduğu ortaya çıxır.**

*"Buna ən parlaq nümunə Amulsar qızıl mədəni ətrafında yaranan vəziyyətdir"*

Bir il əvvəl Paşinyan korrupsiya ilə mübarizə məsələsində bunları demişdi: "Biz sizə vəd etmişdik ki, sıra ilə Ermənistanın bütün talançılarının adlarını açıqlayacayıq və budur, biz sıra ilə talançıların adlarını açıqlayırıq. Lakin biz demək istəyirik ki, korrupsiyaya qarşı mübarizədə qarşımızda duran əsas məsələ türmələri doldurmaq yox, sizdən oğurlanmış vəsaiti qəpiyinədək xalqa və dövlətə qaytarmaqdır".

Ötən 1 il ərzində Ermənistanda korrupsiyaya qarşı mübarizə sahəsində hər hansı bir hökm verilməyib. Sabiq hakimiyyətin tanınmış siması olan Robert Köçəryandan başqa, qalan bütün talançılar azad gəzərək, bəzi hallarda talan etdiklərini yeni Paşinyan hakimiyyətinin üzvləri ilə əməkdaşlıq etməklə açıq-aşkar istifadə etməkdə davam edirlər. Məsələn, İşxan Zakaryan, ümumermənı oyunlarının təşkilatçısı olaraq qalmaqda davam edir və dəfələrlə onun fəaliyyəti Paşinyan və onun müavini Tiqran Avinyan tərəfindən legitimləşdirilib. Həmçinin qeyd olunur ki, Paşinyan və Avinyanla birlikdə Zakaryan da ümumermənı oyunlarının bağlanış mərasimində iştirak edib. Paşinyan tərəfindən "əsrin rüşvətxoru" elan edilmiş sabiq Təbiəti Mühafizə naziri Aram Harutyunyan 14 milyon rüşvət almaqda ittiham edilsə də, hazırda "təminatlı şəkildə" hüquq-mühafizə orqanlarından gizlənməkdə davam edir. Ermənistanda açıq bəyan edirlər ki, son bir ildəki Paşinyan hakimiyyəti dövründə heç bir şey dəyişməyib. Belə məlum olur ki, ötən bir ildə Paşinyan ya korrupsionerlərlə bacarmadı, ya da özü onlara qoşuldu. Hər halda, fakt ortadadır.



Sözügedən məsələ ilə bağlı fkirlərini "Bakı-Xəbər"lə bölüşən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, Paşinyanın korrupsiya ilə bağlı vədlərinin havada qalması onun korrupsiyaya ortaq olmasından xəbər verir: "İlk vaxtlar Paşinyan ağlasığmaz vədlər verirdi. Hakimiyyətdə yavaş-yavaş mövqelərini bərkidəndən sonra verilən vədlər arxa plana keçdi. Ölkədəki oliqarxlarla ortaq olmağa başladı. Buna ən parlaq nümunə Amulsar qızıl mədəni ətrafında yaranan vəziyyətdir. Məlum olduğu kimi, sözügedən yatağın istismarı zamanı yarana biləcək ekoloji fəlakətlərə rəğmən, Paşinyan gəlir əldə etməkdən ötrü Amulsarın istismarında qərarlıdır. O yaxşı bilir ki, həmin qızıl mədəni ona milyonlar qazandıracaq.

**Həmin milyonları da hakimiyyətini qorumağa yönəldəcək. Ona görə də Paşinyan ötən bir ildə korrupsiya ilə mübarizə aparmayıb. Əksinə, korrupsionerlərlə ortaq olub. Digər tərəfdən, Paşinyan Köçəryanı ona görə içəri salıb ki, adıçəkilən şəxsin ona qarşı ciddi bir siyasi rəqib olacağından qorxur. Yoxsa bunun korrupsiya ilə heç bir əlaqəsi yoxdur".**

*Vidadi ORDAHALLI*

**Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağ münaqişəsi ilə bağlı son açıqlamaları onun konfliktin dinc müstəvidə həllində maraqlı olmadığını aydın nümayiş etdirdi. Ekspertlər isə Paşinyanın münaqişə barədə vaxtaşırı sərsəm mövqelər sərgiləməsini ölkə daxilində yaranan problemlərlə izah edir.**

# Paşinyan komandasının "Transparency International" təşkilatı ilə çirkli siyasi oyun planları üzə çıxdı...

Bildirilir ki, Paşinyan üzləşdiyi çətinliklər fonunda diqqəti məhz Qarabağ münaqişəsi vasitəsilə yayındırmağa çalışır.

Hazırda Ermənistanın baş naziri "Qarabağ klanı" ilə mübarizədə mövqelərini itirməkdədir. O, işğalçı ordunun Ermənistandakı və Azərbaycan ərazilərindəki törtöküntüləri üzərində tam nəzarətə sahib deyil. Eyni zamanda, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində "stəkanda fırtına qoparmaq" niyyətini həyata keçirə bilməyib. Həm Ermənistanda, həm də işğal edilmiş ərazilərdə yaşayan ermənilərin sosial həyatında müsbətə doğru hər hansı dəyişiklik baş verməyib. Əksinə, işğalçı ölkənin təcrid olunması prosesi daha da dərinləşib. Məhz bu vəziyyətdə Paşinyana qarşı etirazlar artır. Elə bu səbəbdən Paşinyan özündən əvvəlki iqtidarın taktikasını davam etdirərək Qarabağ məsələsi vasitəsilə cəmiyyətin diqqətini yayındırmağa can atır. Amma Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin sabiq rəisi David Şahnazaryan bildirir ki, bu gediş də artıq Paşinyanın köməyinə çatmayacaq. O vurğulayıb ki, erməni xalqının oyanışı Nikol Paşinyanın hökuməti üçün təhlükəli həddə çatıb. Şahnazaryan burada Qarabağ amilinin də mühüm rol oynadığın bildiriö O qeyd edib ki, milyarder Corc Sorosun qrantından istifadə edən beynəlxalq təşkilatlar Ermənistanda baş vermiş "məxməri inqilabı" Dağlıq Qarabağda da həyata keçirməyə çalışırlar. Siyasətçinin sözlərinə görə, bu proseslərə orada keçiriləcək "seçkilərin müşahidə missiyası" tərəfindən rəvac veriləcək.

D.Şahnazaryan bildirib ki, Dağlıq Qarabağda "məxməri inqilab" bu yaxınlarda hökumətdən 33,6 milyon dram qrant almış erməni təşkilatı və məşhur "Transparency International" tərəfindən həyata keçiriləcək. O diqqətə çatdırıb ki, korrupsiya ilə mübarizə apardığını qeyd edən bu beynəlxalq təşkilatın "seçkilərin" müşahidəsi ilə məşğul olması ən azından heyrət doğurur. Siyasətçi xatırladıb ki, sabiq prezident Sarkisyanın da istefasında İrəvan-Qarabağ kartları oynanıb: "Qarabağda hakimiyyətin İrəvana müqavimət göstərdiyini görən Paşinyan orada özünün mənafeyinə uyğun rejim yaratmaq üçün yuxarıda göstərdiyim təşkilatların köməyinə müraciət edib". Erməni siyasətçi əlavə edib ki, guya məramı korrupsiya ilə mübarizə olan "Transparency International" Paşinyan hökumətində baş verən bu cür hallar barədə bir kəlmə belə deməyib: "Açıq-aşkardır ki, əvvəl mövcud olan korrupsiya mexanizmləri nəinki aradan qaldırılmayıb, hətta onları daha da təkmilləşdiriblər. Yeni hökumət, ən azı, daha üç yeni mexanizm yaradıb". Şahnazaryanın sözlərinə görə, indi Paşinyanın həyat yoldaşı tamamilə qeyri-şəffaf fondlar yaradır, onun adamları iri və orta biznes nümayəndələrinə qarşı reketçilikdən istifadə edirlər. Milli Təhlükəsizlik Xidmətinin sabiq başçısı onu da bildirib ki, Ermənistan hökuməti "inqilab" adı altında ölkədə vətəndaş cəmiyyətini məhv edib. Məsələn, mətbuat azadlığının qorunması ilə məşğul olan təşkilatlar müstəqil medianı boğmağa başlayıblar.

Erməni siyasətçi ölkə vətəndaşlarını beynəlxalq təşkilatların fəaliyyətini nəzarətdə saxlamağa çağırıb və onları maliyyələşdirən Corc Soros fondunun rəhbərinin bu ölkədə "məxməri inqilab"a kömək etdikləri barədə bəyanatını xatırladıb. O, hüquq-mühafizə orqanlarını da beynəlxalq təşkilatların ölkənin daxili işlərinə müdaxiləsi ilə bağlı tədbirlər görməyə, onların fəaliyyətini qadağan etməyə səsləyib, Paşinyan hökumətini isə vətəndaşların vergiləri hesabına qondarma Qarabağ respublikasında özünə sərf edən rejim qurmaqda təqsirləndirib. Siyasətçi əlavə edib ki, bu cür oyunların Ermənistan hökuməti üçün ağır nəticələri olacaq.

Ermənistan parlamentinin keçmiş vitse-spikeri Eduard Şarmazanov da eynir mövqedədir. Şarmazanova görə, Ermənistanda hakimiyyətin ələ keçirilməsindən bir il sonra, praktiki olaraq, "sehrli çubuğ"un sıçrayış inkişafı mifologiyasını sıfıra endirməklə, ugursuzluğa uğrayan tərəf populizmin növbəti mərhələsinə keçid edir: "Ermənistan hakimiyyətini sümürgənlər və cəlladlar idarə edir. Biz bununla sərt mübarizə aparacağıq. Nikol, geri sayım başlayacaq, son mərmini at. Yalanın ayaqları gödəkdir".

Hələlik isə görünən budur ki, Paşinyan ölkəsində və işğal altında olan Azərbaycan ərazisində yaşayan ermənilər arasında ultramillətçi əhval-ruhiyyəni gücləndirməklə diqqəti sosial, hakimiyyətdaxili problemlərdən, yarıtmaz idarəetmədən, iflasa uğrayan xarici siyasətdən yayındırmaq istəyir. Amma bunlar Paşinyanın özü üçün getdikcə ciddi problemə çevrilir.




Digər tərəfdən o da faktdır ki, Azərbaycanın yürütdüyü siyasət nəticəsində bölgədəki reallıqlar artıq fərqli məzmun alıb. Paşinyan bu durumda Qarabağ məsələsində sərsəm açıqlamalar verməklə, sadəcə, özü üçün yeni sərt zərbələr hazırlayır. Çünki Ermənistanın həm siyasi, həm də hərbi müstəvidə həyata keçirmək istədiyi bütün təxribatların qarşısını Bakı lazımi qaydada alacaq və dövriyyəyə Azərbaycanın Silahlı Qüvvələrinin daxil edilməsi Paşinyan üçün ən ağır zərbə olacaq.

Bunu rusiyalı politoloq Vitali Arkov da təsdiq edir. Onun fikrincə, Paşinyan ölkədə iqtisadiyyatın çökdüyü bir vaxtda öz reytinqini bərpa etmək təlaşındadır: "Paşinyanın iqtisadi sahədə möcüzə yaratmaqda acizliyi elə bəri başdan bəllidir, amma əhalinin yoxsulluqda yaşayan çoxluğunu hər cür nağılla aldatmaq çətin deyildi. Paşinyan hakimiyyəti tərəfindən Dağlıq Qarabağın köhnə kadrlardan təmizlənməmiş ərazi olması baş naziri və onun arxasındakı qrupları xeyli narahat edir. Bu durumda Qarabağ münaqişəsi ətrafında verilən açıqlamalar isə savaşı qızışdırsa, Paşinyan gözləmədiyi böyük problemlərlə üzləşəcək".

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Yeni Qarabağ savaşı Ermənistanın gözlədiyindən də tez başlaya bilər...

**Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsi ətrafında gərginliyi artıran ritorikasını davam etdirməsi konfliktin hərbi həll ehtimalını getdikcə artırır. Xüsusən də Paşinyanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən zor gücü ilə ayrılmasını Azərbaycanın SSRİ-dən çıxması prosesi ilə əsaslandırmaq cəhdi onun konfliktin sülh yolu ilə çözmək ümidləri qarşısına çəkdiyi növbəti böyük əngəl sayılır.**

Belə mövqe sərgiləməklə Paşinyan həm də beynəlxalq hüququn prinsiplərini pozmaqla müharibə ehtimalını daha da artırır.

Digər tərəfdən o da birmənalı həqiqətdir ki, Paşinyan bundan əvvəl Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırışla beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə məhəl qoymadığını, vasitəçilik edən ATƏT-in Minsk Qrupunun həmsədrlərinə total hörmətsizlik nümayiş etdirdiyini də bir daha sübut edib. Bu mənada hesab edilir ki, Minsk Qrupunun həmsədrləri Ermənistan hakimiyyətinin bu addımlarını qiymətləndirməli və adekvat cavab verməlidir. Əks təqdirdə yeni Qarabağ savaşı Ermənistanın gözlədiyindən də tez başlaya bilər. Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Paşinyanın son sərsəmləməsinə münasibəti də təsdiq edir: "Ermənistanın bu və ya digər rəhbərinin mövqeyindən asılı olmayaraq, Azərbaycan özünün beynəlxalq tanınmış və əzəli torpaqları, o cümlədən Dağlıq Qarabağ bölgəsi üzərində suverenliyini bərpa edəcək, çünki ədalət və hüquq Azərbaycan tərəfindədir. Bu vaxt gəlib çatacaq və bölgədə vəziyyətin inkişafı nəzərə alınarsa, bu vaxt hər an yetişə bilər". Bu açıqlamadan da aydın görünür ki, münaqişənin nizama salınmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Bakı çox açıq şəkildə bəyan edir ki, problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır. Xatırladaq ki, bu mövqe beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır. Həmin beynəlxalq hüquq çox aydın təsbit edir ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisi, ayrılmaz hissəsidir. Bu səbəbdən Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin qorunması, bərpa edilməsi, etnik təmizləməyə məruz qalmış vətəndaşlarının öz doğma torpaqlarına geri qayıtması üçün bütün mümkün vasitələrdən istifadə etmək hüququna da malikdir. Əslində, Bakı buna tam hazır olduğuun açıq şəkildə bəyan edir. Amma görünür ki, Ermənistanın indiki rəhbərliyi bunlardan lazımi nəticə çıxarmağa çətinlik çəkir. Məhz bundan irəli gəlir ki, Ermənistanın baş naziri, eləcə də xarici işlər nazirinin Qarabağla bağlı kəskin çıxışlar etmələri rəsmi Bakı qarşısında, demək olar ki, müharibədən başqa seçim qoymur. Bu gedişlə hərbi əməliyyatların başlama ehtimalı olduqca yüksəkdir. Hadisələr faktiki olaraq bu istiqamətə gedir.

Özü də Ermənistan burada nəzərə almalıdır ki, savaş başladığı halda regionda geosiyasi vəziyyət də onun lehinə olmayacaq. Ekspertlər diqqəti ona yönəldir ki, İranla ABŞ arasındakı olduqca soyuq münasibətlər və Rusiyanın daxilində gedən proseslər hərbi əməliyyatlar məsələsini Azərbaycan üçün əlverişli edir. Rəsmi Tehran, ölkəsinin İsrail və ABŞ-la pis münasibətləri fonunda hərbi əməliyyatlar başlayarsa, ən azından tərəfsiz qalacaq. ABŞ və İsrail isə Azərbaycanın yanında yer alacaq. O ki qaldı şimal qonşumuza, Kreml də daha çox Bakıya meyllənir. Bunu erməni şərhçi Akop Badalyan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Moskvaya son səfəri və bu zaman yaşananlar fonunda daha aydın müşahidə etdiklərini bildirir. Badalyan hesab edir ki, Ərdoğanla Putinin yaxınlaşması yeni hədəfləri müəyyənləşdirir: "Sual yaranır, növbəti hədəfdə kim olacaq? Hələlik, Rusiya və Türkiyə hərbi sənayedə aktiv əməkdaşlıq edir və 2023-cü ildə kosmik layihənin həyata keçirilməsi planlaşdırır. Lakin bu proseslər Ermənistanın hədəf taxtasına çıxarılacağı təhlükəsini artırır, xüsusilə proseslərdə Rusiya baş nazirinin müavini, "Roskosmos"un rəhbəri Dmitri Roqozin amili diqqət çəkir. "Roskosmos"un rəhbəri bu günlərdə Ermənistanın Müdafiə Nazirliyini məhkəməyə verdi. Əsas budur ki, Ermənistan Müdafiə Nazirliyi Rusiyanın ORSİS silah şirkətinin silah çatdırılması ilə bağlı tenderdə əldə etdiyi qələbəni ləğv edib. ORSİS-in açıqlamasında bildirilir ki, şirkət tenderin şərtlərini yerinə yetirib, lakin sonra əsas gətirilmədən ləğv ediblər. Ermənistanın İstintaq Komitəsi Rusiya şirkətinin müraciətinə əsasən araşdırmalara başlayıb, lakin Müdafiə Nazirliyi hələlik heç bir şərh vermir. Məlumatlar var ki, ORSİS şirkəti Roqozinindir. Bu şəxs "aprel müharibəsi" dövründə Azərbaycana silah satışı haqqında intensiv danışıqlar aparır, Ermənistanı narazılığını dilə gətirdiyi üçün hədələyirdi. Görünür, Roqozin Azərbaycan və Türkiyənin maraqlarını müdafiə edir, Ermənistana qarşı sərt mövqe sərgiləyir. Maraqlıdır ki, Roqozinin Türkiyəyə silahlarla bağlı yeni təklifi bu kontekstdə təsadüfi sayılmır. Görünür, Rusiya-Türkiyə-Azərbaycan oxunda Ermənistana qarşı təhlükəli gələcək hazırlanır". Bu arada, Ermənistanla Rusiya arasında növbəti qalmaqal mənbəyi sayılan ORSİS şirkətinin nümayəndəsinin sözlərinə görə, Ermənistan Müdafiə Nazirliyi mayda ilk dəfə olaraq bir neçə milyon dollarlıq hərbi texnikanın çatdırılmasına dair tender elan edib. Tələblərə yalnız Rusiya şirkəti cavab verib, lakin tender naməlum səbəblərdən bağlı elan olunub.

Şirkətdən bildirilib ki, cinayət işi xidmətə səhlənkar yanaşma haqqında maddəyə əsasən açılıb. Məlumat istintaq orqanları tərəfindən təsdiqlənib və iş tamamlandıqda əlavə informasiya veriləcəyi bildirilir. Qeyd olunduğu kimi, ORSIS şirkəti apelyasiya komissiyasına və Ermənistanda onun maraqlarını müdafiə edən vəkilə müraciət edərək, məhkəmə iddiası qaldırıb. Hadisə ilə bağlı Ermənistanın Rusiyadakı səfirliyinin hərbi attaşesi məlumatlandırılıb. Ermənistan Müdafiə Nazirliyi cinayət işinin açılması haqqında məlumatları təsdiq edib.

ORSIS şirkəti "PromTechonology" qrupunun bir hissəsini təşkil edir. Bu şirkət bir neçə ildir ki, İrəvanı silah, hərbi sursat və optika ilə təmin edir. Erməni mediası yazır ki, şirkətin Ermənistana qarşı mənfi rəyləri ilə seçilən Dmitri Roqozinlə əlaqəsi var. Belə ki,ORSIS şirkətinin direktoru vəzifəsində, yaxın keçmişdə Dmitri Roqozinin oğlu Aleksey Roqozin işləyib. Akop Badalyan qeyd edir ki, Dmitri Roqozin Kremlin ağırçəkili fiqurlarındandır və ona bağlı şirkətə qarşı Ermənistanda atılan addımlar İrəvan üçün yaxşı heç nə vəd etmir: "Dmitri Roqozinin gedişləri sayəsində Rusiyanın Azərbaycana daha yeni silahlar satması, yəqin ki, qaçılmaz olacaq. Eyni zamanda o, Qarabağ məsələsində Bakını bundan sonra daha aktiv müdafiə edəcək. Deməli, regionda vəziyyət daha sürətlə bizim əleyhimizə işləyir. Bakı bunlardan istifadə edib savaşa başlaya bilər. Azərbaycan tərəfinin rəsmi bəyanatlarında müharibə ehtimalının daha çox qabardılmasının arxasında duran səbəblərdən biri elə bununla bağlıdır. Təəssüf ki, Ermənistan rəsmilərinin mövqe və açıqlamaları da Bakı üçün əlavə imkanlar açır".

Ermənistanın "Past" qəzeti də yazır ki, Nikol Paşinyanın Qarabağ məsələsində verdiyi açıqlamalar vəziyyəti gərginləşdirir, savaş ehtimalını artırır. Qəzet yazır ki, hətta baş verənlərə Paşinyanın müəllimi sayılan sabiq prezident Levon Ter-Petrosyan və onun rəhbəri olduğu Ermənistan Milli Konqresinin təmsilçiləri də narazılıqla yanaşır. Nəşr xatırladır ki, "Ter-Petrosyan cəbhəsi" hesab olunan və Nikol Paşinyanla əməkdaşlıq edən blok avqust ayının 5-də Paşinyanın işğal altında olan Xankəndidəki təxribatçı çıxışına da kifayət qədər üsyankar şəkildə münasibət bəsləyib: "Ermənistan Milli Konqresinin təmsilçilərinin sosial şəbəkələrdəki tənqidləri və şərhləri məhz bununla əlaqədar olub. Yayılan məlumatlara əsasən, Ter-Petrosyan və Paşinyan arasında mövcud olan razılaşmalar pozulub. Xüsusilə Qarabağ məsələsində, daha dəqiq desək, münaqişənin həlli prosesi ilə bağlı tərəflər arasında fikir ayrılığı yaranıb". "Past" qeyd edib ki, Paşinyan öz çıxışında kürsüdən "Qarabağ Ermənistandır, vəssalam" deyə təxribatçı bəyanatı səsləndirdikdə, bu, müəyyən qrupların xoşuna gəlməyib: "Paşinyan bu ifadəni öncədən palnalaşdırılmadan səsləndirilib. Bu ifadə yaranmış vəziyyətdən irəli gələrək səsləndirilən bəyanat olub. Hökumət yanındakı mənbələrdən əldə olunan məlumata görə, Paşinyan hamı üçün gözlənilməz şəkildə, son məqamda çıxışının müəyyən xüsusi hissələrini dəyişib. Bunun ardınca Paşinyanın Qarabağ məsələsində digər açıqlamaları vəziyyəti daha da gərginləşdirib, Azərbaycanın narazılıq dolu bəyanatlar səsləndirməsinə səbəb olub. Bakı beynəlxalq ictimaiyyətin, xüsusən də ATƏT-in Minsk Qrupunun məsələyə reksiya verməsini tələb edir, həmçinin savaşın başlanmasını istsina etmir. İndilikdə yaranan mənzərə isə onu göstərir ki, bütün bunlara səbəbkar da Nikol Paşinyandır". Erməni nəşri vurğulayıb ki, mövcud vəziyyətdə savaşın başlanması heç də Ermənistan üçün sərfəli deyil və çoxsayıl faktorlar İrəvanın əlverişsiz mövqedə olduğunu göstərir. Amma görünən həm də budur ki, Ermənistanın sərsəm baş naziri bu reallıqları hələ də diqqətə almaqda acizlik nümayiş etdirir. Məhz bu səbəbdən Paşinyanın mövqeyi üzündən yaxın tezlikdə yeni Qarabağ savaşının başlanması qaçılmaz sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Hayların Qafqaza kütləvi şəkildə köçürülməsinin tarixi məlumdur. Buna baxmayaraq, onlar bu torpağın "qədim sakin"ləri olduqlarını iddia etməkdə davam edirlər və öz uydurmalarını "sübut" etmək üçün cild-cild kitablar yazır, xəritələr nəşr edirlər. Özlərini gah Urartuya, gah Albaniyaya, gah İberiyaya, gah da Bizansa calaq etmək istəyən hayların gerçək tarixi bizə onlar haqqında çox informasiyalar verir.**

# Sovet dərsliklərində də erməni dövlətçiliyi barədə mövzular yox idi, Azərbaycan dövlətçiliyi isə...

***Qasım Hacıyev:** ”Ermənilər öz qondarma dövlətçilik anlayışlarını Sovet tarixşünaslığına saldıra bilmədilər”*





*”Ermənilərin uydurması, yalanları, saxta dövlətləri haqqında fikirləri Sovet tarixçiləri tərəfindən qəbul edilmirdi”*

Əlbəttə, həm XIX, həm XX, həm də XXI əsrlərdə haylar (ermənilər) "Böyük Ermənistan" xülyasını gerçəkləşdirməyə cəhd ediblər və bununla bağlı layihələr, konsepsiyalar hazırlayıblar. Lakin onların bu "sənəd"ləri heç bir dövr üçün etibarlı olmayıb.

Onlar özlərinin Qafqazın "yerli sakin"ləri olmasını "sübut" etməsi üçün Sovet dövründə olduqca geniş fəaliyyət göstərsələr də, Sovet tarixşünaslığında onların bu yalanının yayılmasına elə də rəvac verilməyib. Yeri gəlmişkən, Sovet tarixşünaslığının yaradılmasında hay alimləri yaxından iştirak ediblər. Lakin onların qondarma və cəfəng fikirlərinin Sovet tarixşünaslığında, tarix dərsliklərində "ayaq tutub yeriməsi"nə o qədər də şərait yaradılmayıb. Sovet dövründə nəşr edilən tarix dərsliklərində "qədim Ermənistan dövləti", yaxud "erməni çarlığı" anlayışına təsadüf edilmir. Lakin bu dərsliklərdə Azərbaycan xanlıqları, eləcə də gürcü çarlıqları barədə məlumatlara rast gəlinir. Doğrudur, bu dərsliklərdə Azərbaycan və gürcü xalqlarının tarixinin geniş şəkildə öyrənilməsinə şərait yaradılmırdı. Yalnız xanlıqların və çarlıqların bir-birinin torpaqlarına hücum etməsi haqqında danışılırdı. Şübhəsiz, Sovet tarixşünaslığının qarşısında duran əsas vəzifələrdən biri SSRİ tərkibində olan respublikaların tarixini unutdurmaq, vahid Sovet tarixşünaslığı yaratmaq idi.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev bizimlə söhbətində bildirdi ki, Sovet tarixşünaslığında xalqların öz tarixlərini dərindən öyrənməsinə heç bir şərait yaradılmırdı. Onun qeyd etdiyinə görə, erməni əsilli tarixçi alimlər Sovet tarixşünaslığının formalaşdırılmadığı dövrlərdə, yəni keçən əsrin 20-30-cu illərində "Böyük Ermənistan" tarixinin yaradılması ilə bağlı müəyyən işlər görür, kitablar nəşr edir, Urartu dövlətinə qarşı açıq iddialar ortaya qoyurdular. Sovet tarixşünaslığının yaradılmasında erməni alimlərinin canfəşanlıq göstərdiyini deyən Q.Hacıyevin bildirdiyinə görə, Yeremyan və digər erməni tarixçilərinin əsas hədəfi tarix dərsliklərinə "Qədim erməni dövləti" anlayışını daxil etmək olub. Onların müxtəlif nəşrlər vasitəsilə yayılan bu məsələnin dərsliklərdə də əks olunmasına çalışdıqlarını deyən Q.Hacıyevin sözlərinə görə, onların bu niyyəti alınmayıb. "O dövrdə Yeremyanın rəhbərliyi ilə Sovet tarixşünaslığında erməni mafiyası dərin kök salmışdı. Yeremyan SSRİ Elmlər Akademiyasının Şərq bölməsinə rəhbərlik edirdi. Ümumiyyətlə, Gürcüstan, Azərbaycan və digər respublikalar haqqında yazılan kitablara o rəy verirdi, bu məsələyə nəzarət edirdi. Sovet dövrünün ilk illərində Yeremyanın, Kalantaryanın, Canpoladyanın və başqa alimlərin yazdıqlarının əsas qayəsini "qədim erməni dövləti yaratmaq" və onu Qafqazda yerləşdirmək təşkil edirdi. Erməni alimləri bu mövzuda kitablar çap edirdilər. Bu alimlərin kitabları nəşr edilsə də, sonrakı dövrlərdə onların "Qafqazda erməni dövləti"ni təbliğ edən fikirlərinə Sovet tarixşünaslığında və tarix dərsliklərində yer verilmədi. Şübhəsiz, onlar Ermənistan tarixi dərsliyini yazarkən burada Urartu dövlətinə qarşı iddialarını ortaya qoyurdular. Amma bütövlükdə bu məsələ Sovet tarixşünaslığında əks olunmurdu. Sovet tarixşünaslığında obyektivlik vardı. Rus, Ukrayna, Belarus alimləri ilə dəfələrlə konfranslar keçirmişik. Yadımdadır, Bakıda 1965-ci ildə Beynəlxalq Arxeologiya konfransı keçirilən zaman erməni alimləri onların cəfəng fikirlərini tənqid edən Sovet alimlərinin çıxışlarına etiraz olaraq zalı tərk etmişdilər. Onlar 1985-ci ildə keçirilən konfransda da eyni addımı atdılar. Erməni alimləri o konfransları ona görə tərk edirdilər ki, deməyə sözləri yox idi. Ermənilərin uydurması, yalanları, saxta dövlətləri haqqında fikirləri Sovet tarixçiləri tərəfindən qəbul edilmirdi. Sovet tarixçiləri yaxşı bilirdilər ki, Qafqazda erməni dövləti olmayıb və ona görə də Sovet tarixşünaslığında, dərsliklərdə onların uydurmalarının yayılmasına qarşı çıxırdılar. Bilirsiz, Sovet tarixşünaslığında senzura var idi və o senzuranın da yaxşı cəhəti o idi ki, erməni yalanının, uydurmasının dərsliklərdə yer almasına imkan verilmirdi. Ermənilər öz qondarma dövlətçilik anlayışlarını Sovet tarixşünaslığına saldıra bilmədilər"-deyə Q.Hacıyev bildirdi.

Onun qeyd etdiyinə görə, erməni alimlərinin cəfəngiyat dolu yazılarının, məqalələrinin əsasını Gürcüstan, Azərbaycan torpaqlarına qarşı əsassız iddilar təşkil edirdi, lakin bunlar dərsliklərdə əks olunmurdu.

***Ülviyyə* NAĞIYEVA**

# "KXCP-yə öz evi kimi baxan Nisəxanım üçün KXCP 15.10.2017-ci ildə bitib - ruhum gedib, qalan cismimdir..."

## KXCP-li Nisəxanım nələr danışdı...

**Klassik Xalq Cəbhəsi Partiyasında ciddi qalmaqal yaşanması ilə bağlı məlumat vermişdik. Qeyd edək ki, hadisə ilə əlaqədar ilk məlumatı KXCP üzvü Oqtay Gülalıyev öz səhifəsində ictimailəşdirmişdi. Həmin məlumatda qeyd edilirdi ki, KXCP- nin avqustun 26-da keçirilən Ali Məclisin sessiyasına partiya sədrinin gətirdiyi adamlar Ali Məclis üzvü Nisəxanım Vəliyevanı təhqir edib, vurmaq üçün ona hücum çəkiblər.**

Yaranmış vəziyyətə aydınlıq gətirmək üçün KXCP funksionerləri ilə əlaqə saxladıq. KXCP Ali Məclisinin sözügedən toplantısında iştirak edən Məclis üzvü Firuz İbrahimli "Bakı-Xəbər"ə yayılan məlumatın həqiqət olmadığını bildirdi: "Bütün bunların arxasında bir qrup dayanır. Həmin qrupa Oqtay Gülalıyev rəhbərlik edir. Nisəxanım Vəliyevanı da salıblar öz təhsirlərinin altına. Bir nəfər də var, Elşən Əlisoy. Onu da partiyadan uzaqlaşdırmışıq. Bütün günü partiyanın əleyhinə təbliğat aparırlar. Gərək həqiqəti deyək ki, Nisəxanım Vəliyeva çox əqidəli xanım olub. Hər zaman partiyanın maraqlarını qoruyub. Bu xanımı da Oqtay Gülalıyev qoşdu özünə. Xanım partiya Ali Məclisinin üzvü ola-ola bütün günü sosial şəbəkələrdə partiya rəhbərlərliyini söyüb, təhqir edir. Belə olmaz axı. Sən partiyanın üzvüsənsə, özü də rəhbər qurumda təmsil olunursansa, belə hərəkətlər etməməlisən. Dəfələrlə ona xəbərdarlıq edilsə də, xeyri olmadı. Sonuncu iclasda onu heç kim döyməyib. Əksinə, o bizim üstümüzə hücum çəkib, bizi təhqir edib. Həmin anın videogörüntüləri var. Buyursun versin məhkəməyə, orda sübut edim ki, kim kimə hücum çəkib".

**Bundan sonra Nisəxanım Vəliyeva bizimlə əlaqə saxladı və baş verən hadisənin birbaşa iştirakçısı kimi onun da mövqeyinə yer verməyimizi xahiş etdi. Məlum qalmaqalda adı hallanan KXCP Ali Məclisinin üzvü Nisəxanım Vəliyeva ilə olan müsahibəni təqdim edirik. - Bizim yazdıqlarımızda Sizi nə qane etmir?**

- Siz hadisənin baş verməsi ilə bağlı Oqtay Gülalıyevin qeydini düz veribsiniz. Qarşı tərəfin də mövqeyini öyrənməyə borclusunuz. Bunu anlayıram. Ancaq Firuz İbrahimli qarşı tərəf kimi mövqeyini düzgün ifadə etməyib. Əvvəla bildirirəm ki, 25.08.2019-cu il tarixində KXCP qərərgahında keçirilən Ali Məclisdəki olayla bağlı Firuz İbrahimli mənə məsləhət verib ki, "buyursun versin məhkəməyə, orada



sübut edim ki, kim kimə hücum çəkib". Bunu mənə ünvanlamasın. Çünki Məclisdə çəkilişi o edirdi və əlində sübut varsa bunu məhkəməsiz də yaya bilər. Baxmayaraq ki, hər zaman, bütün sessiyalarda M.Mirəlioğlunun gözqaş işarəsi ilə bəzi məqamların çəkilişini dayandırıb.

**- Siz niyə məhkəməyə müraciət etmək istəmirsiniz?**

- Mən hansı məhkəməyə verim? Ömrü boyu Əli Kərimlinin adını çəkib onu aşağılayan M.Mirəlioğlu bu məsələdə hakimiyyətin də Əli Kərimli ilə bağlı səsləndirdiyi fikirlərlə üst-üstə düşənləri? Məhkəmələr də bu hakimiyyətin əlindədirsə mən bunu hansı məhkəməyə verə bilərəm? Bundan başqa, Firuz İbrahimli, inanın, iki-üç kəlmə sözü dalbadal deməyi bacarmır. Bu qədər verdiyi müsahibə onun məhsulu deyil. Bu hazırlanmış, ona verilmiş mətndir. Bunu deməyim üçün çox əsaslarım var.

**- Sizcə, Firuz İbrahimlinin Ali Məclis üzvü kimi bu məsələyə münasibət bildirmək hüququ və haqqı yoxdur?**

- Firuz İbrahimli yalnız sözdə vurub-yıxaramdan danışar, bir də söyüş söyər. Yaxud da "xəstəliyim var" deyə qışqırmaqla qarşısındakını qorxudar. Hesab edirəm ki, mənə qarşı kampaniya eyni mərkəzdən idarə olunur. Sosial şəbəkədə mənim rəylərimdən birinə Masallıdan Elçin İbrahimov, Lənkərandan Azər Şəfiyev eyni anda nöqtə vergülünə kimi eyni mətnlə mənə cavab vermişdilər. Mən soruşduqda Elçin İbrahimov bunu təsadüf adlandırdı. Mən çox dərinə getməsəm də, sözsüz ki, buna inanmadım.

**- Qarşı tərəf Sizin kimlərinsə təsiri altına düşüb, KXCP rəhbərliyinə bu kampaniyanı apardığınızı deyir. Buna münasibətiniz necədir?**

- Firuz İbrahimli deyir ki, Elşən Əlisoyu cəbhədən çıxardıblar. Kişi bu qədər yalan danışmaz. Əksinə, Elşən Əlisoyu çıxarda bilmədikləri üçün Südeyif Sadıqlı, Yaqub Babayev, Azad Məmmədli və Zülfü Mirmahmud Mirəlioğlunun onlara söz verib Ali Məclisdə bunu bacarmadığı səbəbindən istefa veriblər. Daha sonra Mirmahmud Mirəlioğlunun oyunlarından iyrənib özü istefa verib. Bu qədər yalan olar? Bir qadın kişilərin üstünə hücum çəkib, çox gülünc. Mən hücum çəkmişəmsə məni verin məhkəməyə, bu qədər bəsit. Dəfələrlə eşidirəm ki, guya məni kimsə öyrədir, kiminsə təsiri altındayam. Mən 1988-ci ildən bu yoldayam, özümün də 64 yaşım var. Hər şey gözümün qabağında cərəyan etdiyi halda məni kim öyrədə bilər? Oğru elə qışqırar ki, doğrunun bağrı yarılar. M.Mirəlioğlu özü adamlarını öyrədir, elə bilir ki, hamı belədir. Fikirləri üstüstə düşən insanları qrup adlandırmazlar.

**- Sizin Oqtay Gülalıyevlə münasibətləriniz necədi və hazırkı mövqedə olmağınızda onun rolu varmı?**

- Bir dəfə Oqtay Gulalıyev Ali Məclisdə zala daxil olanda ona oturmaq üçün qabaqda yer olduğunu bildirdim. O vaxt M.Mirəlioğlu məni öz adamı hesab edirdi. Sonradan məni tənbeh etdi ki, niyə onu qabağa çağırdın? Budur sədrin mahiyyəti? Mən soruşuram, Oqtay Gulalıyevi Milli Şuraya kim aparıb? Yaxud da KXCP-nin elə bir qərarı varmı ki, fərdlər də Milli Şuradan çıxsın? Bir insan bir partiyada ola bilər, amma ictimai qurumlarda olmasına qapılar açıqdır. Elə isə M.Mirəlioğlu min cür qurumlarda özünü göstərir. Harada yazılıb ki, ona olar, başqasına yox?

**- KXCP-dən bildirirlər ki, Sizin məsələnizə Ali Məclisdə baxılacağını bildiyiniz üçün orda səs-küy salmısınız…**

- Mənim məsələmə Ali Məclisdə baxırlarsa, buyursunlar. Bir dəfə Adil Mikayıllı, bir dəfə də Vaqif Babayev bu məsələni qaldırıb. Firuz İbrahimlinin xatirinə dəymək olmaz, qoy o da mənim məsələmi gündəmə gətirsin. KXCP-yə öz evi kimi baxan Nisəxanım üçün KXCP 15.10.2017-ci ildə bitib. Ruhum gedib, qalan cismimdir ki, M.Mirəlioğlunun nə vaxt qurultay çağıracağını gözləyir. Bir ildir ki, səlahiyyətsiz partiyanı idarə edir. Firuz İbrahimli qoy bu barədə danışsın. Oqtay Gulalıyev KXCP üzvüdür, onu M.Mirəlioğlu Ali Məclisdən xaric etdi, lakin KXCP üzvü olmayan Zülfünün mənə hücumuna susaraq, oturub məmnunluqla tamaşa etdi. Hətta ona kürsüdə danışmaq üçün söz də veriblər. Mirmahmud Mirəlioğlu Zülfünün dili ilə Ali Məclis sədri Bəybala Əbilə qarşı danışdıtdırır. Cəbhəçi olmayan Bəybalanın getməsini hansı haqla deyir? Guya arxasında 400 nəfər kişi Bəybalanın getməsini gözləyir.

**- Sizin əsas hədəfiniz partiya sədridir, yoxsa partiyadaxili demokratiyanı təmin etmək istəyirsiniz?**

- Bütün bunlara baxmayaraq, mənim davam M.Mirəlioğlunu müdafiə edənlərlə deyil. Çünki vaxtilə mənim də gözlərimin kor olan vaxtı olub, onu tanımamışam. Mərkəzə doğru gəldikcə tanımalar baş verir. M.Mirəlioğlu məndən bir dəfə üzr istəyib, bu dəfə də istəməli, Nizamnaməyə əməl etməlidir. Əks təqdirdə davam edəcəm.

***Məhəmmədəli QƏRİBLİ***

**Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov rəsmi qəzetlərdən başsağlığı elanlarının yığışdırılacağını açıqlayıb. Deputat açıqlamasında deyib ki, "Dini etiqad azadlığı və dini qurumlar haqqında" yenidən işlənən qanun layihəsində bu məsələ nəzərdə tutulur:**

# Rəsmi dövlət qəzetlərində başsağlıqları ləğv edilir...




## *Azər Həsrət: "Qanunvericilikdə bunun qadağan edilməsi ilə bağlı irəli sürülən təşəbbüsü dəstəkləyirəm"*

"Rəsmi şəxslərdən başqa, cənab Prezidentin verdiyi başsağlığından başqa, digər şəxslərin rəsmi dövlət qəzetlərində başsağlığı verməsi qadağan olunacaq. Qəzetlərin son səhifəsi artıq başsağlığı mərasiminə dönüb. Xüsusilə də hökumət qəzetlərinin. Başsağlığı verilən yerə xəbər, yaxud da hansısa digər yazılar verə bilərlər. Bizim digər qəzetlərlə işimiz yoxdur. Söhbət dövlətin vəsaiti ilə çap olunan rəsmi qəzetlərdən gedir. Mən hesab edirəm ki, nəhayət, buna son qoymaq lazımdır".

S.Novruzov indiyə qədər tətbiq olunan qaydaların yığışdırılması zərurətindən də danışıb: "Yazılır ki, filankəs ölüb. Allah rəhmət eləsin! Ölüb-ölüb də. Rəsmi adamdırsa, bu başqa məsələ. Dövlət başçısı buna başsağlığı verir. Necə ki, haradasa zəlzələ, yaxud başqa ağır hadisə baş verəndə, çoxsaylı insan tələfatı olanda dövlətlərin başçıları bir-birinə başsağlığı verirlər, bu başqa şeydir. Ya da Azərbaycanın hansısa dövlət xadimi və ya mədəniyyət-incəsənət xadimi rəhmətə gedəndə dövlət başçısı bununla bağlı başsağlığı verir, nekroloq imzalayır. Bunlar fərqli məsələdir. Amma birinin qayınanası, qayınatası ölüb, Allah rəhmət eləsin, başsağlığı yarışı başlayır, qəzetin bir hissəsi belə şeylərə sərf olunur. Başsağlıqları növbəyə düzülür. Zəng elə, başsağlığı ver, daha bunu başqasına niyə elan edirsən ki? İndi biz istəyirik bunu qanuni formaya salaq".

Rəsmi dövlət qəzetlərində başsağlıqlarının yığışdırılması ilə bağlı səslənən qanunvericilik təşəbbüsünü necə dəyərləndirmək olar?

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, bu mövzu barədə əvvəl heç düşünməyib:

> *"Bəzən insanlar öz itkilərinə ağlamaq əvəzinə, yas məsrəfləri barədə düşünməyə məcbur olurlar"*

"Ancaq "Dini etiqad azadlığı və dini qurumlar haqqında" yenidən işlənən qanun layihəsində bu məsələnin də nəzərdə tutulmasını eşidəndə bir qədər fikirləşməli oldum. Məlumat Siyavuş Novruzov tərəfindən verilib. O, fəal deputatlarımızdandı, son 30 ildir siyasi proseslərin mərkəzindədir. Yəni belə şəxsin məlumatını mötəbər saya bilərik. Siyavuş Novruzov düz deyir ki, rəsmi dövlət qəzetlərində verilən başsağlıqlarının sayı həddən artıq çoxdur. Bundan başqa, hər arzu edən ödədiyi pulun müqabilində gəlib orda istədiyi adama başsağlığı verə bilirdi. Qanunvericilkdə bunun qadağan edilməsi ilə bağlı irəli sürülən təşəbbüsü dəstəkləyirəm. Yas mərasimlərində ehsan verilməsinin yığcamlaşdırılması da zəruridir. Buna ayrı-ayrı yerlərdə təşəbbüslər olunub və gözəl nəticəsi var. Elə yerlər var ki, həmin təşəbbüs sona qədər baş tutmayıb. Çünki qanunvericiliklə tənzimlənmədiyi üçün hərə öz mənfəəti prizmasından çıxış edir. Bütün bu yeniliklər baş tutacağı tədirdə insanlarımız da bir qədər rahatlamış olacaq. Bizim etiqad etdiyimiz və yaslarımızı qanunlarına əsaslanaraq verdiyimiz İslam dini belə israfı və dəbdəbəni qəbul etmir. Uzun illərdi ki, sadə əhalimiz bundan əziyyət çəkir. Bəhsəbəhs o həddə çatıb ki, bəzən insanlar öz itkilərini ağlamaq əvəzinə, yas məsrəfləri barədə düşünməyə məcbur olurlar. Hətta elə olur ki, ailələr borca girib doğmalarına yas verməyə məcbur qalır ki, kimdənsə seçilməsin. Yeniliyin tətbiq edilməsi ilə bağlı irəli sürülən bütün fikirlərin qəbulunu zəruri sayıram".

*Məhəmmədəli QƏRİBLİ*

---

**Günü-gündən güclənən Azərbaycan ordusu dünyada Qafqazın ən qüdrətli ordusu olaraq qəbul edilir. Bu gün ordumuz həm texniki, həm peşəkar kadrlar baxımından çox inkişaf edib. Ordunun inkişafını sürətləndirən amillərdən birinin elm olduğu şübhəsizdir. Azərbaycanda zaman-zaman elmin orduya müsbət təsiri olub.**

# Strateji Elmi Tədqiqatlar Mərkəzinin layihələrindən hərbidə istifadə olunacaq



## *Tərlan Eyvazov: "Azərbaycan alimlərinin hazırladığı layihələrin orduda tətbiq edilməsi çox müsbətdir və bunun effektiv nəticələri var"*

Azərbaycan alimləri, mühəndisləri hərbi, müdafiə və mülki xarakterli layihələri ilə ordunun işinə dəstək olublar.

Azərbaycanda alimlərin hərbi layihələrinin orduda tətbiq ediləcəyinə dair yeni məlumatlar yayılıb. Məlum olduğu kimi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyəti aparatının Strateji Elmi Tədqiqatlar Mərkəzinin (SETM) hərbi, müdafiə və mülki xarakterli elmi-tədqiqat işləri çərçivəsində hazırlanmış növbəti layihəsinin artıq təqdimatı da keçirilib. AMEA-dan verilən məlumata görə, SETM müharibə şəraitində olan Azərbaycan üçün böyük əhəmiyyətə malik elmi-tədqiqat işlərinin hazırlanması, yeni və mövcud layihələrin davam etdirilməsi, eləcə də yekun nümunənin sınaqdan keçirilməsini davam etdirir. Qeyd edilənə görə, Azərbaycanın hərbi qüdrətinin artırılması istiqamətində ölkə rəhbərliyi tərəfindən aparılan siyasətin, eyni zamanda çoxsaylı tədbirlərin davamı olaraq Akademiya tərəfindən həyata keçirilən hərbi və müdafiə xarakterli elmi-tədqiqat işləri üzrə layihələrin genişləndirilməsi və inkişaf etdirilməsi olduqca aktualdır. Bildirilənə görə, SETM-in əsas məqsədi və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi zamanı AMEA-nın aidiyyəti elmi müəssisə və təşkilatlarının, xüsusilə Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin mütəxəssislərinin layihələrə cəlb edilməsi, bu sahədə elmi tədqiqat, texnoloji, layihə-konstruktor, texniki istehsal hazırlığı, sınaq laboratoriyalarını özündə birləşdirən sistemin yaradılması olduqca əhəmiyyətlidir.

AMEA-dan verilən məlumatda qeyd edilir ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi rəhbərliyinin rəyinə əsasən, SETM-in layihələrinin hazır nümunələrinin Azərbaycan Ordusunda tətbiqi və istifadəsi məqsədəuyğun hesab olunub.

Tanınmış hərbi ekspert Tərlan Eyvazov mövzu ilə bağlı "Bakı-Xəbər"ə bildirdi ki, müasir Azərbaycan elminin son nailiyyətlərinin Azərbaycan ordusunda tətbiqi edilməsi ordumuzun yeni silahlarla, texniki cihazlarla təmin olunmasına şərait yaradır. O hesab edir ki, alimlərin, mühəndislərin iştirakı ilə elm mərkəzlərinin hazırladığı hərbi, müdafiə və mülki layihələrin orduda tətbiqi böyük effekt verəcək:"Müasir dövrdə elmi nailiyyətlər tətbiq olunmadan heç bir sahə inkişaf edə bilməz. O ki qala, ən strateji və vacib sahələrdən biri olan hərbi sahə. Azərbaycanda dövlət müstəqilliyimizin ilk illərindən başlayaraq istər ixtiracı alimlər, istərsə də mühəndislər Azərbaycan ordusundan öz köməklərini əsirgəməyiblər. Alim və mühəndislərimiz yeni ixtiraları, təklif və layihələri ilə həmişə ordunun işinə yaxından köməklik göstəriblər. O dövrdə bizim mülki zavodlarda, müəssisələrdə hərbi silahların hazırlanması təcrübəsi olub. Son illər hərbi sənayemizin formalaşdırılmasında Azərbaycan alimləri iştirak edir və bu sahədə özümüzün elmi potensialımızdan istifadə olunur, bu istiqamətdə olan yeni layihələr tətbiq edilir. Azərbaycan alimlərinin hazırladıqları layihələrin orduda tətbiq edilməsi çox müsbətdir və bunun effektiv nəticələri var. Alimlərimizin ixtirası əsasında hazırlanan silahların yüksək keyfiyyətə çatdırılması onların xaricə satılmasını təmin edir və bundan dövlət büdcəsinə gəlir gəlir".

> *"Alim və mühəndislərimiz yeni ixtiraları, təklif və layihələri ilə həmişə ordunun işinə yaxından köməklik göstəriblər"*

**T.Eyvazov qeyd etdi ki, Milli Elmlər Akademiyası böyük elmi potensiala malik elmi qurun kimi ordunun işində yaxından iştirak edir. Bu qurumun hərbi istiqamətdə hazırladığı layihələrin həm hərbi sənayemizin, həm də iqtisadiyyatımızın inkişafına müsbət təsir göstərdiyini deyən mütəxəssis hesab edir ki, bu gün Azərbaycan ordusunda ölkə istehsalı olan silahlardan, hərbi texniki avadanlıqlardan istifadə edilməsi müsbət haldır.**

Onun sözlərinə görə, hər bir dövlət özünün istehsal etdiyi hərbi-texniki avadanlıqlardan öz ordusunda istifadə edir.

*İradə SARIYEVA*

# Din xadimlərimiz istəsələr, sosial şəbəkələrdə böyük qüvvəyə çevrilə bilərlər...

**_Hacı Təyyar Hüseynli:_** _"Komitənin din xadimlərinin sosial şəbəkələrdə aktiv olması ilə bağlı çağırışını birmənalı olaraq təqdir edir, dəstəkləyirəm"_

**Sosial şəbəkələrin açıq platforma olmasından müxtəlif müstəvilərdə sui-istifadə halları mövcuddur. Dini radikal qruplaşmalar, xurafat, cəhalət yayan qüvvələrin sosial şəbəkələrdə aktiv zərərli fəaliyyət göstərməsi birbaşa həm dinə, həm də cəmiyyətə zərbə vurur.**



Gizli deyil ki, ayrı-ayrı dini qruplaşmaların üzvləri facebook və digər sosial şəbəkələr üzərindən dinimizlə heç bir bağlılığı olmayan, insanları qaranlığa, cəhalətə sürükləyən video çağırışlar, mesajlar, statuslar paylaşırlar. Cəmiyyətə bölücülük yaratmağa hesablanan bu kimi hallar sosial şəbəkələrdən istifadə edən sağlam fikirli, düşüncəli insanları ciddi şəkildə narahat edir. Zərərli təmayüllərin üzvüləri, xüsusən də islam tarixi, dünyası üçün əhəmiyyətli olan müqəddəs bayramlar, hüzn günləri ərəfəsində daha da aktivləşir və xurafat, cəhalət yayan fikirləri ilə sosial şəbəkələrin gündəmini zəbt edirlər. Sözsüz ki, islami dəyərlərlə, bütövlükdə islam fəlsəfəsi ilə daban-dabana ziddiyyət təşkil edən bu paylaşımlar, çağırışlar sağlam təfəkkürlü din xadimləri tərəfindən əsaslandırılmış şəkildə cavablandırılmalıdır.

Sosial şəbəkələrdə bu kimi halların qarşısının alınması, şübhəsiz ki, hələlik mümkün deyil, lakin din xadimlərinin bu məsələdə aktivliyi onların zərərli fəaliyyətinin zəifləməsinə səbəb ola bilər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi din xadimlərini bu kimi məsələlərlə barışmaz olmağa və sosial şəbəkələrdə aktiv iştirak etməyə çağırıb. Komitənin sədr müavini Səyyad Salahlı (Aran) Qəbələdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qəbələ Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirədə bildirib ki, din pərdəsi altında gizlənmiş, İslamı təhrif edən, xurafatı, cəhaləti yayan, insanlar arasında ixtilafa səbəb olacaq çağırışlar edən, məzhəb ayrıseçkiliyi salan, digər dinlərə münasibətlərə ciddi zərbə vuracaq materialları yayan qüvvələrə qarşı din xadimlərimizin, ilahiyyatçılarımızın, dini icmalarımızın üzərinə də böyük məsuliyyət düşür. Onlar İslamın, dinimizin gözəlliklərini, insanpərvər dəyərlərini, həmrəyliyə və birliyə çağıran xüsusiyyətlərini insanlarımıza sadəcə məsciddən yox, həm də məhz sosial media vasitəsilə çatdırmaqda aktivlik nümayiş etdirməlidirlər.

Sədr müavini nümunəvi dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərimizin qorunması, tolerant və multikultural ənənələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən, o cümlədən din xadimlərinin sosial şəbəkələrdən aktiv istifadə etməsinin vacibliyindən danışıb.

"Ölkəmizdə hökm sürən multikulturalizm və dinlərarası tolerantlıq mühitinə qarşı əsas təhdidlərdən biri dini radikalizmdir. Bunun yaranma səbəblərindən biri İslam dini haqqında məlumatsızlıq, yad dini ideologiyaların yayılması cəhdləridir. Dini ekstremizm və dini radikalizmlə mübarizədə və bu kimi mənfi halların yayılmasında sosial şəbəkələrin rolu danılmazdır"-deyə bildirən qurum rəsmisi sosial medianın vətəndaş cəmiyyətinin formalaşması üçün başlıca faktorlardan biri olduğunu deyib. Diqqətə çatdırıb ki, din pərdəsi altında gizlənmiş, İslamı gözdən salan qüvvələrin çirkin əməlləri üçün sosial media imkanlarından çox effektli şəkildə istifadə edirlər. Sədrin birinci müavini din xadimlərini sosial medianın gücündən və imkanlarından istifadə edərək respublikamızda sabitliyi pozmaq istəyən, yüksək dini ideyalar uğrunda mübarizə pərdəsi altında fəaliyyət göstərən qrupların əsl simasının ifşa edilməsində prinsipiallıq və aktivlik nümayiş etdirməyə çağırıb.

Tanınmış ilahiyyatçı Hacı Təyyar Hüseynli baki-xeber.com-a bildirdi ki, Azərbaycanda mövcud olan tolerant mühiti, dinlərarası sağlam əlaqələri pozmaq istəyən və dövlətçiliyimizə qarşı təxribat törətməyə cəhd göstərən qüvvələrin apardıqları zərərli təbliğata qarşı sağlam düşüncəli din xadimləri hər zaman barışmaz mövqe sərgiləyib. "Dini komitənin din xadimlərinin sosial şəbəkələrdə aktiv olması ilə bağlı çağırışını birmənalı olaraq təqdir edir, dəstəkləyirəm. Hazırda sosial şəbəkələrdə kütləvi şəkildə insanlara sosial, ictimai-siyasi və digər məsələlərlə bağlı rəsmi müraciətlər olunur və bu müraciətlərə də saysız insanlar dəstək verir. Bu, günümüzün ən aktual məsələlərindən biri kimi daim ictimaiyyətin diqqətindədir. Azərbaycanda mövcud olan sağlam dini mühitdə pozuculuq, çaşqınlıq yaratmaq, dinlərarası əlaqələri pozmaq məqsədilə yanlış nəsnələri təbliğ edən, bu xoşagəlməz missiyanı yerinə yetirən qüvvələr sosial şəbəklərdən də istifadə edirlər. Bütövlükdə, onların bu çağırışı Azərbaycandakı sağlam dini ab-havanı pozmağa hesablanıb. Hesab edirəm ki, onların bu zərərli çağırışlarının qarşısının alınmasında din xadimlərimiz yaxından iştirak etməlidir. Din xadimləri, dini icmalar bu məsələdə fəallaşmalı, ayıq-sayıq olmalıdır. Çünki Azərbaycanda bütün dinlərə böyük qayğı və diqqət var, bütün dinlərin, konfensiyaların təmsilçiləri müsəlmanlarla dostluq, sülh şəraitində yaşayır, bu tolerant mühitdə birgə fəaliyyət göstərirlər. Ölkəmizdəki toleratlıq və multikulturalizm mühiti Azərbaycanı istəməyən qüvvələr üçün qətiyyən sərfəli deyil, onlar bundan çox narahat olurlar. Ona görə də, həmin qüvvələr islama aid olmayan və düşüncələrində kök atan zərərli fikirləri sosial şəbəkələrdə yayır və başqalarını da öz cəhalət torlarına salmaq istəyirlər. Əlbəttə, bu kimi halların qarşısı alınmalıdır. Azərbaycanda kifayət qədər savadlı, əməlli, təməlli, obyektiv və sağlam düşüncə tərzi olan din xadimləri, sivil ilahiyyatçılar var. Din xadimlərimiz bu kimi mənfi halların qarşısının alınması üçün Azərbaycanın mənəvi mühitində bir informasiya istehkamı yaratmalıdır. Mən də bir sivil düşüncəli, Azərbaycan dövlətçiliyinə bağlı ilahiyyatçı kimi mənəvi mühitdə təbliğat aparıram. Çalışıram ki, bütün Azərbaycan cəmiyyəti, sosial kəsimi, bütövlükdə ümumxalq düşüncəsi üçün saflığa, şəffaflığa, ümimxalq, ümumdövlət mənafeyinə xidmət edən təbliğat aparım".

H.T.Hüseynli qeyd etdi ki, sağlam düşüncəli bir ilahiyyatçı kimi həm sosial şəbəkələrdə, həm də ictimai həyatda islam dininə yad olan təzahürlərə qarşı mübarizə aparır.

"Dini komitənin çağırışına cavab olaraq Azərbaycanın din xadimləri, ilahiyyatçıları, eləcə də dini icmaların təmsilçiləri fundamental şəkildə Azərbaycandakı sağlam mənəvi, dini mühiti, tolerantlıq ab-havasını pozmaq istəyən qüvvələrə qarşı sosial şəbəkələrdə kəsin mövqe nümayiş etdirəcək və güclü bir müdafiə istehkamı quracaqlar"-deyə H.T.Hüseynli vurğuladı.

***İradə SARIYEVA***

# Uşaq pullarının bərpa söhbətləri konkretləşir...

**Son aylar ölkədə uşaqlar üçün veriləcən müavinətin bərpa olunacağı ilə bağlı məlumatlar mütəmadi olaraq gündəmə gəlir. Uşaq pulunun yenidən veriləcəyi barədə xəbərlər rəsmi şəxslər tərəfindən səslənir. Məlumat üçün bildirək ki, 2006-cı il iyunun 1-dən Azərbaycanda "uşaq pulu" verilmir.**



## *Vüqar Bayramov: "Yaxın vaxtlarda "uşaq pulu"nun bərpasını görə biləcəyik"*

Həmin dövrdə bu qərar uşaqlar üçün verilən pulun məbləğinin az olması ilə əsaslandırılıb və dövlətin ünvanlı sosial yardıma üstünlük verdiyi açıqlanıb.

Onu da qeyd edək ki, hazırda ölkədə 17 yaşadək olan uşaqların sayı təxminən 2 milyon 614 min nəfərdir. Uşaqların sosial qayğısının həll olunması istiqamətində onlar üçün müavinətin verilməsi fikri hər kəs tərəfindən müsbət qarşılanır. Hətta parlament təmsilçiləri də dəfələrlə öz çıxışlarında bildiriblər ki, Milli Məclisin payız sessiyasında bu məsələ müzakirəyə çıxarılacaq.

Uşaq pulunun yenidən verilməsi barədə fikir bildirən iqtisadçı ekspert Vüqar Bayramov qeyd etdi ki, uşaq pulu məsələsi ilk olaraq gündəmə gələn ərəfədə beyin mərkəzi olaraq parlament üzvləri və bir sıra hökumət qurumları ilə məsələ müzakirə edilib:"Uşaq pulu"nun bərpası ilə bağlı təkliflər paketi İqtisadi və Sosial İnkişaf Mərkəzi tərəfindən hazırlanıb və Azərbaycan hökumətinə təqdim olunub. Biz bir neçə ay öncə uşaq pulunun bərpası ilə bağlı mexanizmi hökumətə təqdim etdikdə həm parlament üzvləri, həm digər dövlət qurumları ilə məsələ müzakirə edildi. Məsələ parlament üzvləri arasında da müzakirə olunub. Parlamentdə ilkin olaraq 3 yaşına qədər "uşaq pulu"nun verilməsi müzakirə edilib. Lakin nə parlamentdə, nə də hökumət qurumları tərəfindən "uşaq pulu"nun bərpası ilə bağlı vaxt göstərildi".

İqtisadçının fikrincə, 3 yaş qrupuna aid olan uşaqlar üçün 2.6 milyard manat vəsait lazımdır. Bununla yanaşı, büdcədən həmin vəsaitə qənaət etmək də lazımdır: "Biz isə "uşaq pulu"nun bərpası ilə bağlı üç yaş qrupu müəyyənləşdirmişik. Birinci yaş qrupu 3 yaşına qədər olan uşaqlardır. Bu yaş qrupunda olan uşaqlara daha çox "uşaq pulu"nun verilməsinin tərəfdarıyıq. Bunun səbəbi də onunla bağlıdır ki, 3 yaşına qədər olan uşaqların xərcləri daha çoxdur. Uşaq qidaları bahadır, səhiyyə xərcləri var. İkinci qrupa 3-6 yaş arası uşaqlar daxildir. Üçüncü mərhələyə 7-17 yaş arası olan uşaqlar daxildir. Bizim hesablamalarımız göstərir ki, bütün 17 yaşına qədər uşaqlara "uşaq pulu"nu vermək üçün 2.6 milyard manat vəsait tələb olunur. Biz eyni zamanda büdcədə həmin vəsaitə necə qənaət edilməsinə və həmin vəsaitin maliyyələşdirilməsi yollarını da göstərmişik. Ona görə də düşünürəm ki, "uşaq pulu" bərpa oluna bilər. Onu da bildirim ki, inkişaf etmiş ölkələrin hamısında "uşaq pulu" verilir. Fərqli mexanizmlər var. Məsələn, İtaliyada "uşaq pulu" ailənin gəlir səviyyəsinə uyğun verilir, daha çox gəliri olan ailələrə "uşaq pulu" verilmir. Bəzi ölkələrdə uşaqların sayına görə verilir. Birinci uşağa vəsait verilmir, ikincidən başlayaraq uşaqların sayı artdıqca "uşaq pulu"nun da məbləği artır. Əksər ölkələrdə əhalinin gəlirlərindən və uşaqların sayından asılı olmayaraq "uşaq pulu" verilir. Azərbaycanda da bunun üçün kifayət qədər maliyyə var".

> *"Sosial paketin də təqdim olunduğunu nəzərə alsaq, uşaq pulunun bərpası mümkündür"*

Həmsöhbətimiz onu da vurğuladı ki, ölkədə "uşaq pulu"nun bərpası üçün imkanlar var, son qərarı hökumət verməlidir: "Sosial paketin də təqdim olunduğunu nəzərə alsaq, uşaq pulunun bərpası mümkündür. Amma bütün hallarda qərarı hökumət verir. Nəticəni bilmək üçün hökumətin rəsmi qərarı olmalıdır. Ümid edirik ki, yaxın vaxtlarda "uşaq pulu"nun bərpasını görə biləcəyik".

**Günel CƏLİLOVA**

# Ölkəyə ət idxalı artır, qiymət dəyişikliyi gözlənilirmi...

**Son illər ölkədə istehsal olunan ətin həcmi artıb. Ölkədə ət istehsal olunmasına baxmayaraq, idxal olunan ətin də həcmində artım qeydə alınıb. Açıqlanan statistik rəqəmlərə əsasən, ət idxalının artması cari ilin yanvar-iyul aylarında müşahidə olunub. Belə ki, bu il ölkəmizə 43,329 milyon dollar dəyərində 28,804 min ton ət idxal edilib.**



## *Natiq Cəfərli: "Xaricdən ət məhsulları idxal olunmasaydı, daxili bazarda bu sahədə yerli istehsalın qiyməti kəskin baha olardı"*

İdxal edilən ətin miqdarı keçən ilin eyni dövrü ilə müqayisədə 3,117 min ton və ya 12,1 faiz çoxdur. İdxalın artması ilə paralel olaraq bu il ət istehsalı da artıb.

Azərbaycanda ətin istehsalına gəldikdə isə, statisrik rəqəmlərdə qeyd olunur ki, bu ilin yeddi ayı ərzində ölkədə 186,5 min ton ət istehsal olunub. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, bu rəqəm 2018-ci il üçün olan göstəricilərdən 2,7 faiz çoxdur. Yəni ət idxalının artım tempi bu məhsulun istehsalını dörd dəfədən çox üstələyir. Buna görə də idxal olunan ətin bazar payı il ərzində 12,5 faizdən 13,2 faizədək artıb. Nəticə etibarilə isə idxal olunan ətin qiymətinin daxili bazara təsiri də artır.

Maraqlıdır, ət idxalının və istehsalının artması onun qiymətinə təsir edə biləcəkmi?

İqtisadçı ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, daxili istehsaldakı artım istehlakın artımı üstüstə düşmür. Çünki istehlak günü-gündən artır: "Nəzərə almaq lazımdır ki, ölkəyə gələn turistlərin sayı artır. Turistlər də artıq istehlakçı qismində çıxış edirlər. Bu səbəbdən də ölkəyə daha çox ət idxal olunur ki, tələbatı ödəmək mümkün olsun".

Ət idxalının artmasının qiymətə təsir edib-etməyəcəyinə gəlincə, iqtisadçı bildirdi ki, idxalın həcminin artması yerli məhsulların qiymətində kəskin artımının qarşısının alınmasına səbəb olub: "Xaricdən ət məhsulları idxal olunmasaydı, daxili bazarda bu sahədə yerli istehsalı qiyməti kəskin baha olardı. Bu səbəbdən idxalın həcminin artması qiymətə təsir etməyəcək".

> *"Tələbatın həcmi günü-gündən artdığı üçün idxalın artımına deyil, daxili istehsalın həcminin artmasına daha çox diqqət yetirmək lazımdır"*

Ekspert hesab edir ki, ətin satış qiyməti ilə bağlı aidiyyəti qurumlar yol xəritəsi hazırlamalıdır: "Nəzərə almaq lazımdır ki, pambıqçılığın, texniki bitkilərinin daha çox əkilməsi örüş yerlərinin və yem tədarükünün azalmasına səbəb olur. Bu hal gələcəkdə iri və xırda buynuzlu heyvanların yem problemi ilə qarşılaşmasına səbəb ola bilər. Yaranmış vəziyyəti indidən diqqətdə saxlamaq lazımdır ki, gələcəkdə idxalın həcmi daha da artmasın, yerli istehsalın həcmi idxalı üstələsin. Bəllidir ki, tələbatın həcmi ildən-ilə deyil, günü-gündən artır. Ona görə də daxili istehsalın həcminin artmasına daha çox diqqət yetirmək lazımdır".

**Günel CƏLİLOVA**

**Son illər Azərbaycan orta ümumtəhsil məktəblərində müəllim kadrların və məktəb direktorlarının gəncləşdirilməsi prosesinə başlanıb. Bu gün bir sıra orta məktəblərə gənc direktorlar rəhbərlik edir. Ekspertlər hesab edirlər ki, gənc məktəb direktorlarının xeyli hissəsi məktəbin idarəedilməsində bacarıq göstərə bilir.**



# Gənc müəllim və məktəb direktorlarının sayı artır

***Kamran Əsədov:** "Son illər Təhsil Nazirliyi orta ümumtəhsil məktəblərinə şəffaf seçim yolu ilə dinamik, işini bilən, ixtisaslı və savadlı müəllimləri, direktorları qəbul edir"*

Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov mətbuata açıqlamasında bildirib ki, əvvəlki illərlə müqayisədə gənc müəllim və direktorların sayı artıb.

E.Bağırovun sözlərinə görə, ümumilikdə götürülsə, direktor olmaq istəyənlər arasında orta yaşlı namizədlər daha çoxluq təşkil edir.

E.Bağırov qeyd edib ki, mövcud qanunvericiliyə əsasən, direktor olmaq üçün namizədin 5 il pedaqoji stajı olmalıdır. O deyib ki, müəllim və məktəb direktorları üçün keçirilən müsabiqələrə qatılan şəxslər artıq stajlı, təcrübəli namizədlərdir.

Bu amil təhsilin idarə olunmasında, eləcə də tədrisin keyfiyyətinin artırılmasında nə kimi müsbət rol oynayacaq?

Tanınmış təhsil eksperti Kamran Əsədov bizimlə söhbətində bildirdi ki, orta təhsil müəssisələrində pedoqoji kadrların cavanlaşdırılması siyasətinin effekti böyük olacaq.

"İlk növbədə qeyd edim ki, hazırda ölkə üzrə müəllimlərin sayı 144 414 nəfər təşkil edir. Onların da 39 179 nəfəri, yəni 27 faizi 35 yaşa qədər olan gənc müəllimlərdir. Həmin müəllimlərin 6099 nəfəri Bakı şəhərinin payına düşür. Təhsil Nazirliyi tərəfindən son illər müəllimlərin stimullaşdırılması, peşəkarlığının artırılması və müəllim nüfuzunun yüksəldilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Ötən il işə qəbul olunan 4100 nəfərə yaxın müəllimin 2724 nəfərinə həvəsləndirmə tədbirləri tətbiq edilib. Ümumilikdə isə müəllimlərin işə qəbulu üzrə müsabiqənin şəffaf keçirilməsi nəticəsində son beş ildə 18 136 müəllim işə qəbul olunub. Onların kənd məktəblərində fəaliyyətə başlamış 11 600 nəfərinə (64 faiz) həvəsləndirmə tədbirləri tətbiq edilib. Son illərdə istər müəllimlərin işə qəbulu, istərsədə direktorların işə qəbulundakı şəffaflıq nəticəsində ötən illərlə müqayisədə müəllim və direktor işləmək arzusunda olanların sayında üç dəfə artım müşahidə edilib. Bu vəzifədə işləmək üçün sənəd verənlərin sayında kəskin artım bunu göstərir. Təkcə 2019-cu ildə 58 mindən çox iddiaçı orta ümumtəhsil məktəblərində işləmək üçün elektron ərizə təqdim etmişdi . Orta məktəblərə maraq təkcə ali təhsillilər arasında artmayıb"-deyə bildirən K.Əsədovun sözlərinə görə, eyni zamanda abituriyentlərdə bu sistemdə şəffalığı görüb gələcək uğurlu kariyeraları burada görürlər. O, vurğuladı ki, 2014-cü ildə 500 və daha artıq bal toplayan 922 nəfər müəllimlik ixtisasını seçmişdisə, 2017-ci ildə bu rəqəm 1370 nəfər olub. Ötən il keçirilən qəbul imtahanlarında 500 və daha artıq bal toplayan məzunlar arasında müəllimlik ixtisasını 2090 nəfər seçib. Bu göstəricinin 2014-2015-ci tədris ilinə nisbətən 2,3 dəfə və ya 126,7 faiz, ötən ilə nisbətən isə 1,5 dəfə və ya 53,6 faiz artım demək olduğunu qeyd edək K.Əsədov bildirdi ki, son 3 ildə Azərbaycanda buraxılış və qəbul imtahanlarının nəticələrinin ildən-ilə daha da yüksəlməsi, tədrisin keyfiyyətinin artması müşahidə edilir:"Son illər Təhsil Nazirliyi orta ümumtəhsil məktəblərinə şəffaf seçim yolu ilə dinamik, işini bilən, ixtisaslı və savadlı müəllimləri, direktorları qəbul edir.

*"Bu, orta məktəblərə yeni nəfəs gətirəcək, rəqabət mühitini artıracaq və təhsilin keyfiyyətinin artmasına səbəb olacaq"*

Cari tədris ilində 3500-ə yaxın yeni gənc müəllim ölkənin müxtəlif məktəblərində fəaliyyətə başlayacaq. Bu orta məktəblərə yeni nəfəs gətirəcək, rəqabət mühitini artıracaq və təhsilin keyfiyyətinin artmasına səbəb olacaq. Eyni zamanda, bu il regionlardakı 600-dən artıq məktəbə yeni direktorlar təyin edilib. Bundan başqa, Bakıda da onlarla məktəbə yeni direktor təyin olunub. Yeni təyinatlar müasir təhsil standartlarının orta məktəblərdə tətbiqini sürətləndirəcək. Məhz onların sayəsində ölkə təhsilində dinamik inkişaf baş verəcək"-deyə K.Əsədov bildirdi.

***İradə SARIYEVA***

**Son bir neçə gündə dalbadal bir neçə ciddi yol-nəqliyyat hadisəsi barədə məlumat yayılıb. Bu nəqliyyat hadisələrində xeyli ölən və yaralananlar olub. Məlumatlara görə, havaların isti keçdiyi dönəmdə avtomobil qəzalarının sayı artır. Səbəb isə sadədir. Mütəxəssislərə görə, isti havaların insan orqanizminə təsiri insanlarda stresə səbəb olan kortizon hormonunu artırır.**



# Avqustda yol qəzaları və ölümlərin nisbi say artımının səbəbləri var...

***İlqar Hüseynli:** "Yay aylarında qəzaların artmasına digər səbəb sürücülərin sərxoş halda avtomobil idarə etməsidir"*

Bu da sürücülərin yollarda daha aqressiv davranması ilə nəticələnir. Həmçinin, səfərdən qayıdanlar yorğun halda sükan arxasına keçdikləri üçün yol qəza hadisələri baş verir. Statistik rəqəmlərə əsasən, avqust ayının 25 günündə respublikanın avtomobil yollarında 61 yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin (DİN) saytında yer alan məlumatda qeyd olunur ki, baş vermiş yol qəzaları zamanı 68 nəfər ölüb, 48 nəfər isə xəsarət alıb. Qeyd edək ki, ötən ilin müvafiq dövründə respublikanın avtomobil yollarında 110 yol qəzası baş verib. Qəzalarda 51 nəfər ölüb, 203 nəfər isə yaralanıb.

Avqust ayı bitməmiş, bir ay ərzində 61 yol nəqliyyat hadisəsinin baş verməsinin səbəbi nə ilə bağlıdır? Ekspertlər bildirir ki, yay fəslində baş verən yol qəza hadisələrinin sayı digər fəsillərlə müqayisədə artıq olur.

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, isti havalarda yol nəqliyyat hadisələrinin artmasına səbəb bəzi nəqliyyat vasitələrinin standartlara uyğun olmamasıdır: "Bəzi avtomobillərdə kondisionerlərin olmaması, isti nəticəsində yaranan yuxu, yorğunluq, tələskənlik qəzalara səbəb olur. Yorğun, yuxulu halda yola çıxmaq olmaz. Bütün polis postlarında sürücülərin istirahət etməsi üçün şərait yaradılıb. Yorğunluq hiss edilən zaman bu postlara yaxınlaşaraq su içmək, dincəlmək mümkündür. Bəzi avtomobilləri standartlara uyğun olmayan sürücülər polis saxladığı zaman bunu imkansızlıqla əlaqələndirirlər. Unudurlar ki, belə avtomobillərlə yola çıxmaq həm onların özü üçün, həm də ətrafdakılar üçün təhlükəlidir".

*"...bəzi nəqliyyat vasitələrinin standartlara uyğun olmaması..."*

Həmsöhbətimiz onu da vurğuladı ki, bəzi xroniki xəstəliyi olan insanlar isti havalarda sükan arxasında özünü pis hiss edir: "Sürücüdə təzyiq, ürək çatışmazlığı varsa, kondisioner olmayan avtomobillə yola çıxmamalıdır. Çünki istidən bu xəstəlik kəskinləşə bilər. Bu zaman sürücü idarəetməni itirir və qəza baş verə bilər".

**Ekspertin sözlərinə görə, yay aylarında qəzaların artmasına digər səbəb sürücülərin sərxoş halda avtomobil idarə etməsidir: "İstirahət mərkəzinə gələn və ya oradan çıxan sürücülərin əhvalı yaxşı olur, içkili olurlar. Bu da qəzaların baş verməsinə səbəb ola bilər".**

***Günel CƏLİLOVA***

№ 152 (4050) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

30 AVQUST 2019-cu il

www.baki-xeber.com

# Süni intellekt qatili yaxaladı

**Çində süni intellekt sayəsində təhlükəli cinayətkar həbs olunub. "ICTnews" bildirir ki, Futsyan əyalətinin 29 yaşlı sakini pulla bağlı yaranan qalmaqal zamanı birgə yaşadığı qızın qətlində təqsirli bilinib.**

O, qadının ölümündən sonra bank proqramı vasitəsilə onun adına kredit almağa cəhd göstərib. Lakin buna görə şəxsiyyəti təsdiq etmək üçün sifətin skan edilməsi prosedurundan keçmək tələb olunub. Bildirilir ki, identifikasiya üçün ölmüş qızın fotoşəklindən istifadə edən cinayətkar proqramın prosedur zamanı göz vurmaq tələb etməsini nəzərə almayıb. Belə ki, sistem tərəfindən lazımi anda gözün hərəkəti aşkarlanmayıb. Bundan başqa, süni intellekt kişi səsini tanıyıb, halbuki, sənədlərə əsasən kredit qadın tərəfindən alınmalı olub. Mümkün fırıldaqçılıqla bağlı informasiya avtomatik olaraq bankın təhlükəsizlik xidmətinə ötürülüb. Öz növbəsində xidmət əməkdaşları əldə edilən video və audio yazılarını hüquq-mühafizə orqanlarına təqdim ediblər. Fotoda qadının sifətində qançırlar aşkarlanıb. Dərhal axtarışa başlayan polis cinayətkarı sübutları məhv etməyə çalışan zaman həbs edib. Məlum olub ki, təqsirləndirilən şəxs qətldən əvvəl qızın hesabından 4200 dolları çıxarmaq üçün onun telefonundan istifadə edib və eyni zamanda, qurbanın valideynlərinə qızın adından istirahətə getməsi ilə bağlı məlumat göndərib. Beləliklə, cinayətkar hər şeyi nəzərə alsa da, süni intellekt onu ifşa etməyə kömək edib.



## Günəş enerjisi ilə işləyən ilk dəmir yolu istifadəyə verildi

"Riding Sunbeams" şirkəti Hempşir şəhərində dünyada günəş enerjisi ilə işləyən ilk dəmiryol xəttini istifadəyə verib. "ICTnews" xəbər verir ki, sözügedən dəmiryol xəttinin uzunluğu çox olmasa da, artıq eksperimental deyil, davamlı işləyir. Şirkətin rəsmisi 2020-ci ildə şəhərətrafı dəmiryol xətlərini yeni enerji mənbəyinə keçirməyə söz verib. Kontakt relsinə enerji birbaşa günəşdən deyil, kabel vasitəsilə yaxınlıqda yerləşən günəş elektrik stansiyasından verilir. Yaxınlıqda yerləşən fermer təsərrüfatında enerji generasiya edən 100 günəş paneli quraşdırılıb. Bu layihənin özəlliyi odur ki, günəş elektrik stansiyası xüsusi olaraq dəmir yolu üçün qurulub.



# Yaşlı insanlara kömək edən süni intellektli robotlar təqdim edildi

**Hündürlüyü 0,8 metr və çəkisi 15 kq olan robotlar smartfona quraşdırılmış proqram və ya sensor ekranın köməyi ilə idarə edilir.**

Robotlar yaşlı insanlarla söhbət edə, dərmanlar qəbul etməyi xatırlada, konsultasiyalar keçirə və ev işlərində kömək edə bilərlər. "ICTnews" bildirir ki, bundan başqa, robotlar telefondan istifadə edən bir çox yaşlı insanların üzləşdiyi problemləri aradan qaldırmaqla "Skype" vasitəsilə ünsiyyəti asanlaşdıra bilərlər. Robotlar, həmçinin otaq temperaturunu və işıqlanma dərəcəsini tənzimləyə bilərlər. Həmçinin "Stivi", "Paro" və "Pillo" adlı robotları dərmanları vaxtlı-vaxtında qəbul etməyi xatırlada bilərlər.



## Elan

Bakı şəhər, Nizami rayonu, Özbəkistan küçəsi, 24 ünvanında yerləşən Abbasov Şota Nəriman oğlu adına verilmiş qeyri-yaşayış sahəsinə dair kupça (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

Eyvazov Zakir Kiçikağa oğluna məxsus JN-211 kod 40703028 torpağa mülkiyyət haqqına dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.
(Ünvan İsmayıllı rayon, Ərəkit kəndi)

Əliyev Ruslan Cəmil oğlunun Bakı şəhəri Nizami rayonu Ə.Kürçaylı küçəsi ev 24, m 1 ünvanının çıxarışın qeydiyyat vəsiqəsi itirdiyi üçün etibarsız sayılır.




**Qoç** - Cari problemləri tərəfdaşlarınızla müzakirə edin. İşdəki ağırlığı və yükü bölüşdürün. Əvvəllər dilə gətirilməyən, sirli saxlanan məsələlər gündəmə gələ bilər. Maddi və fiziki resurslarınızı tükətməyin.


**Buğa** - Səfər, səyahət və ezamiyyət üçün uğurlu gündür. Yeni işə başlamaq, yaşam arealında yeniliklər etmək olar. Şəxsi məsələlərin həlli, dostlarla görüş, sevdiyiniz insanla görüşü təxirə salmayın.


**Əkizlər** - Oxşar maraqlar, məqsədlər və planlarınız olan insanlarla bir araya gəlmək pis olmaz. Gün sakit deyil, əhvalınız dəyişə bilər. Olayların axarı təmasda olduğunuz insanlar və gördüyünüz işlərdən asılıdır.


**Xərçəng** - Təmaslar, əlaqələr, gələn məlumatların sayı sürətlə artır. Səhər saatlarından etibarən qətiyyətli və inamlı olun. Kiçik problemlərlə qarşılaşanda ruhdan düşməyin, geri çəkilməyin.


**Şir** - Fəallığınızı artırın. Görüş, müzakirələr, yaradıcılıq fəallığınızın izharı uğurlu olacaq. Ətrafınızdakı insanların maraqlarına zidd olarsa, niyyətinizi açıqlamayın. Yaxın gələcəkdə işlərinizə ciddi təsir edə biləcək yeniliklər ola bilər.


**Qız** - Yaxın günlərdə dürüst hərəkət etmək üçün prioritetləri yanlış müəyyənləşdirməyin. Gerçəkdən də mühüm məsələləri həll etmək şansı yaranır. İşgüzar fəaliyyətlə bağlı maraqlı imkanlar yaranarsa, istirahəti təxirə salın.


**Tərəzi** - Ayın ən səmərəli və məhsuldar günüdür. Sizin üçün təxirəsalınmaz, ciddi məziyyətə malik işlə məşğul olun. Enerji potensialı yüksək olduğundan problemlərin və məsələlərin sürətli həllinə çalışın.


**Əqrəb** - Emosiyaların işə və effektiv fəaliyyətə mane olmaması üçün gərəkli balansı məyyənləşdirin. Uzunmüddətli mübahisələrə qatılmayın. Ətrafınızdakı insanlardan biri sizə maraqlı məsləhət verəcək.


**Oxatan** - Görüş və danışıqlar hansısa məsələnin maliyyə yönlərini ön plana çəkəcək. Həmsöhbətin şirin dilinə, vədlərinə uymayın. Fəaliyyətlə işdəki rol bölgüsünü məntiqi baxımdan araşdırın, problemli məqamları nəzərdən keçirin.


**Oğlaq** - Ailənin maraqlarını hər şeydən üstün tutun. Sevdiyiniz insanların qayğısına qalın. İşlərin düzgün təşkilati və qayda da olması indi önəmli məsələdir. Hadisələrin məcrasına təsir etmək istəyirsinizsə, düşünülməmiş addımlar atmayın.


**Dolça** - Sakit gün olmayacaq. Yeni ideya və təşəbbüsləriniz var. Bir yerdə oturmaq çətindir. Əlaqələr, təmaslar, yerdəyişmələr çoxdur. Ünsiyyət və təmaslarda rəvanlıq olmayacaq.


**Balıqlar** - Səbirli və uzaqgörən olun. Böyük planlar və gözləntilər problemlərlə qarşılaşa bilər. Soyuqqanlı olun, kiçik və xırda məsələlərə əsəbiləşməyin. Çətinliklər situativ səciyyəli olduğundan onları asanlıqla dəf edə bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## Barmağı ilə 200 tonluq gəmini sahilə çıxardı

**Gürcüstanda ağır atletika idman növü ilə məşğul olan Giorgi Rostomaşvili hər kəsi təəccübləndirəcək addım atıb.**

"Qafqazinfo" xəbər verir ki, 29 yaşlı idmançı Batumidə 200 tonluq "Tamara 2" adlı gəmini tək barmağı ilə sahilə çəkib. O, gəmini 5 metr hərəkət etdirə bilib. Giorginin bu addımını Gürcüstan Rekordlar Federasiyası qeydə alaraq "Guinness"ə göndərəcəyini açıqlayıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.